Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN

## FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

(2012)

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN

## FƏALİYYƏTİNƏ DAİR

# HESABAT

(2012)

Bakı – 2013

Hesabatda İşgəncələr əleyhinə Milli preventiv mexanizmin 2012-ci il ərzində müvafiq istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyət, həmçinin irəli sürülən təklif və tövsiyələr əks etdirilir.

Hesabata statistik məlumat, fotoşəkillər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu, o cümlədən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi haqqında Əsasnamə əlavə edilmişdir.

**ISBN: 978-9952-8220-5-2**

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı **Bakı Ofisi**

Bu hesabat Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hazırlanmış və ATƏT-in Bakı Ofisinin maliyyə dəstəyi ilə tərcümə və çap edilmişdir. Hesabatda dərc edilən fikirlər onun müəllifinə aiddir və ATƏT-in Bakı Ofisinin mövqeyini əks etdirməyə bilər.

# Ön söz

İlk öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə milli preventiv mexanizm (MPM) qismində fəaliyyət göstərmək üçün təsisat müəyyən edilməsi hüquqi dövlət quruculuğu prosesinin davamı olmaqla, dövlətin insan hüquqlarının daha yüksək səviyyədə təmin olunmasına xidmət edən beynəlxalq standartları dəstəkləmək iradəsi və bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərdən irəli gəlmişdir. Ratifikasiya edilmiş müvafiq sənədin tələblərinin ölkədaxili normalarda təsbit edilməsi bu sahədə ilkin təcrübə və potensiala malik Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının (Müvəkkil) MPM kimi səlahiyyətləndirilməsi ilə nəticələnmişdir.

Əvvəlki illərdə maddi-texniki baza ilə əlaqədar meydana çıxan çətinliklərin 2012-ci ildə aradan qaldırılması MPM-in işinin daha yüksək səviyyədə qurulması və xarici ölkələrin analoji təsisatları arasında nümunəvi qurum kimi tanınması üçün zəmin yaratmışdır.

Müvəkkilin fəaliyyət dövrü ərzində digər dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi-informasiya vasitələri, eləcə də beynəlxalq təşkilatlar, xarici ölkə ombudsmanları ilə qurduğu qarşılıqlı əməkdaşlıq münasibətləri, təbii ki, MPM qismində fəaliyyətinin də uğurunu ilk günlərdən təmin etmiş, konstruktiv dialoqların, zəruri dəstəyin, faydalı təlimlərin və təcrübə mübadilələrinin təşkilini mümkün etmişdir.

Azərbaycan MPM-i özünün qısa fəaliyyət dövrü ərzində ölkədə işgəncələrin qarşısının alınması işinin qanunvericilik və təşkilati baxımdan daha da təkmilləşdirilməsinə verdiyi töhfələrə görə həm ölkə ictimaiyyəti, həm də aidiyyəti ixtisaslaşmış təşkilatlar qarşısında özünəməxsus nüfuz qazana bilmişdir.

Hazırkı hesabat Müvəkkilin 2012-ci il ərzində MPM qismində həyata keçirdiyi fəaliyyəti əhatə etməklə MPM-in işinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər, preventiv başçəkmələr zamanı aşkar olunmuş hallar, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in digər fəaliyyət istiqamətləri üzrə tədbirləri işıqlandırır, aparılan təhlillər nəticəsində irəli sürülən təklif və tövsiyələri ehtiva edir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Professor Elmira SÜLEYMANOVA**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## MÜNDƏRİCAT


Ön söz ........................................................................................ 3

Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar ........................................... 6

**BÖLMƏ 1.** Azərbaycan Respublikasinda MPM-in İnkişafi .......................... 8

*1.1. FP-nin tələbləri və milli qanunvericilik* ......................................... *8*
*1.2. Təşkilati məsələlər* ........................................................................ *12*
*1.3. Fəaliyyət istiqamətləri* ................................................................. *14*

**BÖLMƏ 2.** Preventiv Başçəkmələr ............................................................ 15

*2.1. Preventiv başçəkmələrin təşkili* .................................................... *15*
*2.2. DİN-in müəssisələri* ....................................................................... *17*
*2.3. ƏN-in müəssisələri* ........................................................................ *21*
*2.4. MTN-in Müvəqqəti saxlama yeri və istintaq təcridxanası* ............ *31*
*2.5. MN-in müəssisələri* ........................................................................ *31*
*2.6. SN-in müəssisələri* ......................................................................... *33*
*2.7. TN-in müəssisələri* ......................................................................... *35*
*2.8. ƏƏSMN-in müəssisələri* ................................................................ *36*

**BÖLMƏ 3.** Hüquqi Təhlil ........................................................................... 38

**BÖLMƏ 4.** Hüquqi Maarifləndirmə ........................................................... 43

**BÖLMƏ 5.** İctimaiyyətlə Əlaqələr və Beynəlxalq Əməkdaşliq ................ 46

**BÖLMƏ 6.** Təklif və Tövsiyələr ................................................................. 49

**Əlavə 1.** MPM rəqəmlərdə ........................................................................ 54

**Əlavə 2.** Fotoşəkillər.................................................................................. 57

**Əlavə 3.** "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu .......................................................................... 64

**Əlavə 4.** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi haqqında Əsasnamə ............................ 79

## Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Altkomitə** – Birləşmiş Millətlər Təşkilatının İşgəncələr Əleyhinə Komitəsinin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə alt komitəsi

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**Avropa Komitəsi** – İşgəncənin və digər qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – cəzaçəkmə müəssisəsi

**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİQ** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu

**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu

**İşgəncə** – işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**KİV** – kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası

**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu

**MM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Müalicə müəssisəsi

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – müvəqqəti saxlama yeri

**MTCM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin məntəqə tipli cəzaçəkmə müəssisəsi

**MTN** – Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PB** –polis bölməsi

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – rayon polis idarəsi

**RPŞ** – rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi

**ŞPŞ** – şəhər polis şöbəsi

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

**TSH** – Tibb-sanitar hissəsi

## BÖLMƏ 1.

## AZƏRBAYCAN RESPUBLİKASINDA MPM-in İNKİŞAFI

### *1.1. FP-nin tələbləri və milli qanunvericilik*

İlk növbədə qeyd olunmalıdır ki, FP [1] -nin əsas tələbi işgəncələrin qarşısının alınması məqsədi ilə azadlıqdan məhrumetmə yerlərinə[2] müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. İşgəncələrin qarşısının alınmasında beynəlxalq və milli səyləri özündə birləşdirən FP innovativ müqavilə olmaqla, konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaktiv – reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həmçinin onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasınıdeyil, mövcud standartın, işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır – Altkomitə və MPM-lər. Beynəlxalq səviyyədə yaradılmış Altkomitə BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin alt komitəsi olmaqla, BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPMazadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm

---

[1] BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması ilkin şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumatverə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

FP Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6] Sözü gedən qanunun dərcindən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Həmin tarixdə həmçinin Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[7] ilə MPM-nin funksiyalarının Müvəkkil tərəfindən həyata keçirildiyi müəyyənedilmişdir.

Müvəkkilin öz fəaliyyətində işgəncələrlə mübarizə və qarşısının alınması, preventiv tədbirlərin təşkili, eləcə də maarifləndirmə işlərinin

---

[3]FP, maddə 19

[4]FP, maddə 18(1)

[5]FP, maddə 20

[6]"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD)

[7]"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112)

aparılması məsələlərinə xüsusi diqqət göstərməsi MPM-in fəaliyyəti üçün baza rolunda çıxış etməklə yanaşı, bu təsisatın müstəqil, qərəzsiz, “Paris prinsipləri”nə əsasən “A” statusuna malik milli insan hüquqları institutu olması faktı da həlledici amillərdən biri olmuşdur.

Təbii ki, üzərinə qoyulan yeni, kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyətdairəsinin genişləndirilməsini şərtləndirmişdir.

Müvəkkilin, eləcə də müvafiq beynəlxalq qurumların, habelə Azərbaycanda fəaliyyət göstərən hüquq müdafiə təşkilatlarının və hüquq müdafiəçilərinin təklif və tövsiyələri də nəzərə alınmaqla Müvəkkilin fəaliyyətini tənzimləyən Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklər[8] göstərilən məqsədə xidmət etmişdir. Belə ki, Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında MPQ yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, Müvəkkilin və MPQ-nin istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, CÇM-lərə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, həmçinin səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ adı çəkilən qanunda təsbit edilmişdir.[10]

Qeyd etmək lazımdır ki, ötən dövr ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin yüksək səviyyədə təşkili üçün digər qanunvericilik aktları da

---

[8] “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD)

[9] Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1

[10] Konstitusiya Qanunu, maddə 12.2.1

təkmilləşdirilmişdir. Belə ki, Müvəkkil və MPQ-nin yuxarıda göstərilən səlahiyyətləri barədə qeydlər müvafiq qaydada CİM-ə, Psixiatriya yardımı haqqında Qanuna, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinə, Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnaməyə, DİQ-əəlavə edilmiş,[11] həmçinin yeni qəbul olunmuş Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqındaQanunda, Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimatda[12] öz əksini tapmışdır.

Əlavələrə əsasən, həmçinin məhkumların MPQ-yə ünvanlanmış təklif, ərizə və şikayətləri senzuradan keçirilmir və bir gündən gec olmayaraq aidiyyəti üzrə göndərilir.[13] Şəxsi hesabında vəsait olmayan məhkumların MPQ-yə ünvanlanmış müraciətlərinin CÇM-lərin vəsaiti hesabına aidiyyəti üzrə göndərilməsi tələbinin təsbitini də müsbət irəliləyiş kimi qiymətləndirmək olar.[14] Göstərilən müddəalar əvvəlki redaksiyalarda yalnız CÇM-lərin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara, Müvəkkilə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə şamil edilirdi.

Qeyd olunanlarla yanaşı, *MPQ ilə yazışmaların senzuraya məruz qalmasının yolverilməzliyi barədə müddəanın, həmçinin Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında*

---

[11]Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148); Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N)

[12]Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ); "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13)

[13]CİM, maddə 83.5; DİQ, bənd 28.6

[14]DİQ, bənd 28.11

*Qanunda,*[15] *eləcə də Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamədə*[16] *təsbit edilməsi məqsədəmüvafiq hesab olunur.*

### *1.2. Təşkilati məsələlər*

Müvəkkil MPM qismində müəyyən olunduqdan sonra yeni vəzifələrinin yüksək səviyyədə icrasının təmin edilməsi məqsədi ilə təşkilati məsələlərin həlli istiqamətində zəruri addımlar atılmışdır. İlk əvvəl Müvəkkilin sərəncamı[17]ilə Aparatın dörd nəfər əməkdaşından ibarət tərkibdə işçi qrupu yaradılmış və qrupa MPM-in funksiyalarının yerinə yetirilməsi işinin təşkil olunmasına dair təkliflər hazırlanması tapşırılmışdır. İşçi qrup Müvəkkilin rəhbərliyi və iştirakı ilə müzakirələr aparmış, müxtəlif dövlət qurumlarından, həmçinin beynəlxalq təşkilatlardan müraciətlər əsasında daxil olmuş təklifləri ümumiləşdirmiş, eyni zamanda bu sahədə mövcud beynəlxalq təcrübəni öyrənərək təhlil etmiş, tədbirlər planı hazırlamış, o cümlədən ölkədə azadlıqdan məhrumetmə yerlərinin siyahısını tərtib etmiş, habelə digər müvafiq istiqamətlər üzrə əməli fəaliyyətə başlamışdır.

Müəyyən edilmişdir ki, MPM-in işinin səmərəli təşkili üçün qarşıda duran əsas məsələonun mandatının FP-nin tələblərinə tam uyğunlaşdırılması və Aparatda xüsusi struktur vahidinin yaradılmasıdır.Bu məqsədlə, Müvəkkilin mandatının FP-nin prizmasından təhlili əsasında Konstitusiya Qanununa əlavə və dəyişikliklər layihəsinin işlənib hazırlanaraq Azərbaycan Respublikasının Milli Məclisinə göndərilməsi ilə yanaşı, həmçinin Aparatda yaradılması nəzərdə tutulan yeni şöbənin tərkibinin, əsasnaməsinin, müvafiq ştat cədvəlinə və büdcəyə əlavələrin layihələri hazırlanmış, aidiyyəti qurumlarla razılaşdırılması üçün yazışmalar aparılmışdır.

Yeni şöbənin yaradılması üçün maliyyə vəsaiti ayrılanadəkMPM-in fəaliyyətinintəşkili Aparatın mövcud struktur vahidlərinin bu işlərə cəlb edilmiş 5 nəfər əməkdaşına həvalə edilmişdir.Daha sonra,Müvəkkilin rəhbərlik etdiyi və Başçəkmələr üzrə altqrup və Sənədlərin və hesabatların hazırlanması üzrə altqrupdan ibarət səkkiz nəfərlik MPM Qrupu

---

[15] Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ), maddə 18.1

[16] Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.05.2003 tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmişdir), bənd 1.6

[17] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun Ombudsman tərəfindən icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Sərəncamı (15.01.2009, № 214)

yaradılmışdır.[18] Fəaliyyətin genişləndirilərək işin təkmilləşdirilməsi məqsədi ilə 2010-cu ilin dekabr ayında altqrupların ləğv olunması və Müvəkkilin regional mərkəzlərinin əməkdaşlarınınQrupun tərkibinə daxil edilməsi ilə Qrup yenidən təşkil edilmiş və üzvlərinin sayı 17 nəfərə çatdırılmışdır.[19] Nəhayət,müvafiq maliyyə vəsaiti ayrıldıqdan[20] sonra Aparatda Başçəkmələr sektoru və Hüquqi təhlil və hesabatlar sektorundan ibarət (cəmi on ştat vahidi) Şöbə yaradılmışdır.[21] Şöbənin əməkdaşları MPQ-nin üzvüdürlər.[22]

İşində insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, aşkarlıq, şəffaflıq, qanunun aliliyi, ədalət, qərəzsizlik, humanistlik və konfidensiallıq kimi prinsipləri rəhbər tutan[23] Şöbənin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Müvəkkilin MPM qismində fəaliyyətini təşkil etmək;
- İşgəncələrin qarşısının alınması işinin inkişafını təmin etmək;
- İşgəncələrin qarşısının alınması işini təşviq etmək.[24]

---

[18]"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Milli Preventiv Mexanizm Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Sərəncamı (19.01.2010, № 222)

[19]"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Milli Preventiv Mexanizm Qrupu haqqında" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Sərəncamı (28.12.2010, № 226)

[20]Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına uyğun olaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 163-IVKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 8 avqust tarixli 1674 nömrəli Sərəncamının icrası barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı (11.09.2012, № 244s)

[21] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatının və regional mərkəzlərinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Sərəncamı (14.09.2012, № 247)

[22] Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi haqqında Əsasnamə ("Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatının və regional mərkəzlərinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Sərəncamı (14.09.2012, № 247) ilə təsdiq edilmişdir), bənd 1.9

[23]Yenə orada, bənd 1.3

[24]Yenə orada, bənd 2

### *1.3. Fəaliyyət istiqamətləri*

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;

- Hüquqi təhlil– həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

- Hüquqi maarifləndirmə– işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;

- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

Göstərilənlərlə yanaşı, həmçinin qeyd olunmalıdır ki, MPM-in fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə sıx əlaqələndirilmişdir. Belə ki, Aparata daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı yönəldicivasitə qismində istifadə olunmuşdur.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, əldə olunmuş uğurlar, irəli sürülən təklifvə tövsiyələr onun xüsusi hesabatlarında əks etdirilir. 2009-2010, eləcə də 2011-ci il üzrə hazırlanmış hesabatlar ATƏT-in Bakı Ofisinin dəstəyi ilə tərcümə olunaraq Azərbaycan və İngilis dillərində nəşr etdirilmiş və paylanılmışdır. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 100-dən çox təklif və tövsiyə öz əksini tapmışdır.

## BÖLMƏ 2.

## PREVENTİV BAŞÇƏKMƏLƏR

### *2.1. Preventiv başçəkmələrin təşkili*

Məlum olduğu kimi, azadlıqdan məhrum etmə yerlərinə mütəmadi olaraq preventiv başçəkmələr həyata keçirilməsi Azərbaycan MPM-nin fəaliyyətinin əsas istiqamətidir. Başçəkmələr FP-nin tələblərinə əsasən tabeliyində azadlıqdan məhrumetmə yerləri olan qurumlara verilmiş sorğular üzrə daxil olmuş və mütəmadi olaraq yenilənən məlumatlar əsasında siyahısı hazırlanan müəssisələrdə aparılır. Ötən illərdə olduğu kimi, 2012-ci ildə də MPQ tərəfindən başçəkmələrin aparılması üçün müvafiq qurumlar tərəfindən qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

MPQ-nin bütün preventiv başçəkmələri əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilir və şərti olaraq iki qrupa bölünür:

- plan üzrə başçəkmələr;
- plandankənar başçəkmələr.

***Plan üzrə başçəkmələr*** Müvəkkil tərəfindən təsdiq olunan, aylara görə bölgü nəzərdə tutulmuş məxfi plan əsasında həyata keçirilir. Bu və ya digər müəssisənin plana daxil edilməsi ardıcıllığı, eləcə də təkrarlığı müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, həmçinin ərazi uyğunluğu kimi amillər nəzərə alınmaqla aparılır. Plan üzrə başçəkmələrin hər biri müəssisənin həcmindən, eləcə də orada saxlanılan şəxslərin sayından asılı olaraq üç iş gününədək davam edir.

***Plandankənar başçəkmələr*** əsasən əvvəlki başçəkmə zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbətlər zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatlar, habelə Müvəkkilin ünvanına daxil olmuş ərizə və şikayətlərin təhlili nəticəsində əldə olunmuş məlumatlara əsasən xüsusi diqqətin artırılması tələbatının təmin edilməsi, habelə Müvəkkilin təşəbbüsü ilə əlaqədar həyata keçirilir.

Azərbaycan MPM-nin başçəkmələrinin uğurlu icrası üçün hər bir başçəkmənin təşkili üç əsas mərhələnin əhatə olunması ilə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmənin nəticələrinin təhlili.

***Başçəkməyə hazırlıq*** adətən iki iş gününədək davam etməklə müvafiq müəssisənin fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın, həmçinin

beynəlxalq standartların,Müvəkkilin ünvanına müxtəlif mənbələrdən daxil olmuş ərizə və şikayətlərin, müraciətlərin, KİV-dən götürülmüş, habelə bu və ya digər beynəlxalq təşkilatın, QHT-nin təqdim etdiyi və ya yayımladığı məlumatların, eləcə də əvvəlki başçəkmələr zamanı aşkar olunmuş faktların, habelə verilmiş təklif və tövsiyələrin təhlil olunması, xüsusi diqqət göstərilməsi zəruri olan məsələlərin dairəsinin müəyyən edilməsi, başçəkmə və müsahibə suallarının siyahısının hazırlanması və başçəkmə qrupunun tərkibinin formalaşdırılması işini əhatə edir.

***Başçəkmənin həyata keçirilməsi*** mərhələsinə qarşıya qoyulmuş suallar üzrə zəruri məlumatların toplanması məqsədi ilə müəssisəsinin rəhbərliyi, əməkdaşları, orada saxlanılan şəxslər, həmçinin onlarla görüşə gəlmiş şəxslərlə məxfilik qorunmaqla, fərdi, eləcə də kollektiv söhbətlərin aparılması, maddi şərait, tibbi xidmət, qidalanma və asudə vaxtın təşkili vəziyyətinin bilavasitə yerində yoxlanılması, habelə rəftara və saxlanma şəraitinə dair sənədlərlə tanışlıq, zəruri hesab olunduğu təqdirdə surətlərinin götürülməsi, o cümlədən akt tərtib edilməsi, görülən tədbirlərin gedişinin və nəticələrinin protokollaşdırılması aiddir.

Azadlıqdan məhrumetmə yerlərinə başçəkmələr zamanı burada saxlanılan şəxslərlə aparılan söhbətlər rəftarla bağlı zəruri məlumatın əldə olunmasında xüsusi əhəmiyyət kəsb edir və belə söhbətlər yalnız xüsusi qaydalara riayət etməklə, məxfiliyin tam qorunması üçün bütün zəruri tədbirlər görülməklə təşkil olunur.

***Başçəkmənin nəticələrinin təhlili*** əldə olunmuş həm nəzəri, həm də empirik məlumatların uzlaşdırılması, aşkar olunmuş çatışmazlıqları doğuran halların müəyyən edilməsi və müvafiq tövsiyələrin işlənib hazırlanaraq aidiyyəti üzrə göndərilməsi, onların icrası vəziyyətinin izlənilməsi, zəruri hallarda təkrar başçəkmələrin təşkili, eləcə də başçəkmənin nəticələrinə dair mətbuat açıqlamasının hazırlanaraq KİV-ə ötürülməsi işini əhatə edir.

2012-ci ildə MPQ tərəfindən plan üzrə 322, plandankənar isə 89 olmaqla, cəmi 411 başçəkmə həyata keçirilmişdir. Həmin başçəkmələrdən 276-sı DİN-in, 115-i ƏN-in, 2-si MTN-in, 5-i MN-in, 8-i SN-in, 3-ü TN-in, və 2-si ƏƏSMN-in tabe müəssisələrində aparılmışdır.[25]

Həyata keçirilən başçəkmələr zamanı müvəqqəti saxlama yerlərində 510, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində 1028, digər müəssisələrdə isə 100-dək saxlanılan şəxs qəbul edilmiş və onlarla təkbətək, fərdi söhbətlər aparılmışdır. Başçəkmələr zamanı həmçinin 130-dək əməkdaşla da fərdi söhbət aparılmışdır.

Ötən illərdə olduğu kimi, 2012-ci ildə də aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması, həmçinin saxlanma şəraitinin

---

[25]Bax: Əlavə 1

təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmişdir və sözü gedən qurumlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlər barədə Müvəkkilə məlumat göndərilmişdir.

### *2.2. DİN-in müəssisələri*

İlk növbədə qeyd etmək lazımdır ki, son illər polis orqanlarının müvəqqəti saxlama yerlərində beynəlxalq normalara və standartlara cavab verən şəraitin yaradılması məqsədi ilə yeni müəssisələr tikilərək istifadəyə verilmişdir.

Müvəkkilin də təklifləri nəzərə alınmaqla Şirvan ŞPŞ MSY-də müasir standartlara cavab verən əlavə 6 kameranın inşa olunması da müsbət hal kimi qiymətləndirilir. Belə ki, zona üzrə fəaliyyət göstərən Şirvan Apellyasiya Məhkəməsinin, eləcə də digər ixtisaslaşmış məhkəmələrin hesabında olan şəxslərin bu müəssisədə saxlanılması səbəbindən əvvəllər müşahidə olunan sıxlıq artıq aradan qalxmışdır. Bundan əlavə, kameralarda köhnə çarpayılar dəyişdirilərək yenisi ilə əvəz edilmiş, çarpayıların sayına uyğun dolabçalar quraşdırılmışıdır.

2012-ci ildə həmçinin Bakı şəhərinin Nizami, respublikanın Sumqayıt və Lənkəran şəhər, rayon polis orqanlarında yeni müvəqqəti saxlama yerləri inşa olunaraq istifadəyə verilmiş, Suraxanı, Gəncə, Qazax, İsmayıllı, Zaqatala, Zərdab, Yardımlı şəhər, rayon polis orqanlarında yeni müvəqqəti saxlama yerlərinin inşasına başlanılmışdır. DİN-in məlumatına görə, tikinti işlərinin aparılması zamanı müvafiq normalara[26] riayət olunur.

DİN tərəfindən daxili işlər orqanlarının insan hüquqları sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, onun müvafiq beynəlxalq standartlara, BMT-nin İşgəncələr Əleyhinə Komitəsinin tövsiyələrinə uyğunlaşdırılması istiqamətində lazımi addımlar atılmış, polis əməkdaşları tərəfindən insan və vətəndaş hüquqlarına ciddi riayət edilməsi məqsədi ilə bu sahədə qarşıda duran vəzifələr müəyyən olunaraq şəhər, rayon polis orqanlarına əlavə tapşırıqlar verilmiş, polisə gətirilmə, saxlanılma və məsuliyyətə cəlb olunma zamanı qanunçuluğun, insan hüquq və azadlıqlarının təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Qeyd olunanlarla yanaşı, saxlanılan şəxslərə qarşı qanunazidd hərəkətlərin, eləcə də kobud rəftarın qarşısının vaxtında alınması və bütövlükdə təhlükəsizlik sisteminin yaxşılaşdırılması məqsədi ilə 64 MSY-

---

[26]Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 30 iyul tarixli 130 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası polis orqanlarının xüsusi təchiz olunmuş binalarla təmin edilməsi Normaları"

nin siqnalizasiya qurğuları yenisi ilə əvəz olunmuş, 61-də müasir videonəzarət avadanlıqları quraşdırılmışdır.

Polisə gətirilmiş və orada saxlanılan şəxslərə, inzibati binalarda yerləşdirilən lövhələr vasitəsilə, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş hüquq və azadlıqları, beynəlxalq normalar əsasında hazırlanmış hüquq və vəzifələri ilə tanış olmaq imkanı yaradılmış, DİN-in müvafiq əmrlərindən çıxarışlar rus və ingilis dillərinə tərcümə olunaraq MSY-lərdə asılmışdır. Həmçinin şəhər, rayon polis orqanlarının inzibati binalarında vəkillərin siyahısı və telefon nömrələri qeyd olunmuş plakatlar mövcuddur.

2012-ci ildə Müvəkkil tərəfindən DİN-ə işgəncə və qeyri-insani rəftar halları ilə bağlı ünvanlanmış müraciətlər əsasında aparılmış xidməti təhqiqatlarla qeyd edilən faktlar təsdiqlənməsə də, daxili işlər orqanları əməkdaşlarının qanunların, yaxud aidiyyəti normativ aktların tələblərini pozduqları müəyyən edildiyindən 3 fakt üzrə 3 əməkdaş intizam məsuliyyətinə cəlb edilərək 2 əməkdaşa "şiddətli töhmət", 1 əməkdaşa isə "töhmət" elan edilmişdir.

Polis əməkdaşlarının xidməti işi ilə bağlı 5 müraciətdə göstərilən faktlar öz təsdiqini tapmış, 4 fakt üzrə nöqsanlara yol vermiş 10 əməkdaş intizam məsuliyyətinə cəlb edilərək 2 əməkdaş daxili işlər orqanlarında xidmətdən xaric edilmiş, 3 əməkdaşa "xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq", 3 əməkdaşa "şiddətli töhmət", 2 əməkdaşa isə "töhmət" elan edilmişdir.

DİN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 117 yer var [27] və 2012-ci il ərzində bu yerlərə 276 başçəkmə həyata keçirilmişdir. Qaradağ RPİ 38-ci PB istisna olmaqla, MPQ-nin bütün başçəkmələrinin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

Qaradağ RPİ 38-ci PB əməkdaşlarının MPQ üzvlərinin başçəkmə həyata keçirməsinə törətdikləri maneələrlə əlaqədar Müvəkkilin DİN-ə etdiyi müraciət üzrə müvafiq araşdırma aparılmış və yol verilmiş nöqsanlara görə PB-nin rəis müavininə və polis sahə inspektoruna "töhmət" elan edilmiş, polis sahə rəisi və cinayət-axtarış üzrə əməliyyat müvəkkiliciddi xəbərdar olunmuş, növbətçi köməkçisinin intizam məsuliyyətinə cəlb edilməsi məsələsi Qaradağ RPİ-nin rəisinə həvalə edilmişdir.

Başçəkmələr zamanı toplanmış məlumatlar üzrə aparılmış ümumiləşdirməyə əsasən qeyd etmək olar ki, bu müəssisələrdəki ümumi vəziyyət, saxlama şəraiti, eləcə də saxlanılan şəxslərlə rəftar qənaətbəxş səviyyədə təşkil olunmuşdur və ümumilikdə standartlara cavab verir.

[27] Bax: Əlavə 1

Göstərilənlərlə yanaşı, başçəkmələr zamanı bəzi çatışmazlıqlar da aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Qəbələ RPŞ MSY-də başçəkmə zamanı, saxlama həddinin 8 nəfər şəxsin saxlanılmasına imkan verməsinə baxmayaraq, burada 11 nəfərin saxlanıldığı, həmçinin inzibati qaydada həbs edilmiş şəxsin təqsirləndirilən şəxslərlə eyni kamerada saxlanıldığı aşkar olunmuşdur. ŞPŞ əməkdaşları saxlama həddinin aşılmasını İsmayıllı RPŞ MSY-də aparılan təmir işləri ilə əlaqələndirmişlər. Lakin hər bir halda bir çarpayıda 2 nəfərin yatması məqbul hesab edilə bilməz. Göstərilənlərlə bağlı Müvəkkilin DİN-ə ünvanladığı müraciət üzrə daxil olmuş cavab məktubunda bildirilmişdir ki, İsmayıllı RPŞ MSY-də aparılan yenidənqurma işləri ilə əlaqədar, qeyd olunan polis orqanı tərəfindən tutulmuş təqsirləndirilən şəxslərin, məhkumların, həmçinin inzibati həbs olunmuşların Qəbələ RPŞ MSY-də saxlanılması barədə müvafiq göstəriş verilmişdir. Lakin inzibati həbs olunmuş şəxsin cinayət törətməkdə təqsirləndirilən şəxslərlə eyni kamerada yerləşdirildiyinə, ümumilikdə 8 nəfərin saxlanılması üçün müvafiq şəraiti olan kameralarda 11 nəfər saxlanıldığına görə Qəbələ RPŞ-nin məsul növbətçiləri, eləcə də MSY-nin rəisi intizam məsuliyyətinə cəlb olunmuşlar.

Başçəkmələr nəticəsində, həmçinin Şəmkir, Gədəbəy və Yardımlı RPŞ-lərdə saxlanılan şəxslərin qeydiyyatı, eləcə də maddi şəraitlə bağlı nöqsanlara yol verildiyi aşkar olunmuşdur. Belə ki, Şəmkir RPŞ-nin növbətçi hissəsinin gözləmə otağında bir nəfər şəxsin iki saatdan artıq, Gədəbəy RPŞ-nin növbətçi hissəsində bir nəfər şəxsin 7 saatdan artıq saxlanılmasına baxmayaraq, müvafiq qeydiyyat jurnallarında bu barədə hər hansı qeyd aparılmadığı, habelə MSY-də saxlanılan şəxslərin kameradan çıxarılması jurnalının olmadığı, eləcə də Yardımlı RPŞ-nin müxtəlif qeydiyyat sənədlərində uyğunsuzluqlar olduğu məlum olmuşdur.

Göstərilənlərlə yanaşı, Şəmkir və Gədəbəy RPŞ MSY-lərdə ilkin tibbi yardım üçün nəzərdə tutulmuş bəzi dərman preparatlarının istifadə müddətinin ötdüyü, həmçinin Gədəbəy RPŞ MSY-də görüş otağının lazımi avadanlıqlarla təchiz edilmədiyi, eləcə də Şəmkir və Yardımlı RPŞ MSY-lərin kameralarında kətillərin sayının çarpayıların sayına uyğun olmadığı, su təminatında problemlərin mövcudluğu, Yardımlı RPŞ MSY-nin bir kamerasında isə sanitar qovşağın olmadığı, yataq dəstləri və çarpayıların istifadə üçün yararsız, hamamda suyun qızdırılması üçün avadanlığın qeyri-işlək vəziyyətdə olduğu, kameralarda və dindirmə otağında təbii işıqlanmanın zəif təşkil olunduğu müəyyən edilmişdir.

Qeyd olunan məsələlərin hər biri ilə əlaqədar Müvəkkil DİN-ə müraciət etmişdir. Daxil olmuş cavab məktublarında bildirilmişdir ki, Şəmkir RPŞ-də polis şöbəsinə gətirilərkən üzərində şəxsiyyətini təsdiq edən sənədin

olmaması səbəbindən şəxsin dərhal "Şəhər, rayon, xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyat kitabı"nda qeyd edilməsi mümkün olmamış, şəxsiyyəti müəyyən edildikdən sonra müvafiq qeydlər aparılmışdır. Gədəbəy RPŞ-də isə şəxsin orada öz istəyi ilə gözləməsi səbəbindən qeydiyyat aparılmamışdır. Cavab məktublarından məlum olmuşdur ki, sözü gedən müəssisələrdə istifadə müddəti ötmüş dərman preparatları yenisi ilə əvəz olunmuş, Gədəbəy RPŞ MSY-nin görüş otağı lazımi avadanlıqlarla təchiz edilmiş, Şəmkir və Yardımlı RPŞ MSY-lərin kameralarında əlavə kətillər quraşdırılmış, su problemləri aradan qaldırılmış, eləcə də Yardımlı RPŞ MSY-də aşkar olunmuş digər nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. Həmçinin bildirilmişdir ki, Yardımlı RPŞ-nin yeni inzibati binasının və MSY-nin tikintisinə başlanılmışdır.

Göstərilənlərlə yanaşı, xidməti fəaliyyətlərində yol verdikləri nöqsanlara görə Şəmkir və Gədəbəy RPŞ MSY-lərin rəislərinə, Yardımlı RPŞ-nin xidmət üzrə rəis müavininə, ictimai təhlükəsizlik bölməsinin rəisinə, məsul növbətçi vəzifəsini müvəqqəti icra edən polis sahə rəisinə "töhmət" elan olunmuş, Yardımlı RPŞ-nin digər məsul növbətçisinin və MSY-nin rəisinin intizam məsuliyyətinə cəlb olunması məsələsi Yardımlı RPŞ-nin rəisinə həvalə edilmişdir. DİN tərəfindən həmçinin polis şöbəsinə gətirilmiş şəxslər barədə müvafiq məlumatların qeydiyyatının aparılması, MSY-lərdə xidməti fəaliyyətin yaxşılaşdırılması, qanunçuluğa riayət olunması, saxlanılan şəxslərin hüquqlarının qorunması üzrə görülən işlərə nəzarət və tələbkarlığın artırılması müvafiq RPŞ rəislərindən tələb olunmuşdur.

2012-ci ildə Müvəkkil Masallı RPŞ MSY-də saxlanılan şəxslərdən birinin intihar etməsi ilə bağlı daxil olmuş məlumatdan narahatlığını ifadə edərək Azərbaycan Respublikasının Baş Prokurorluğuna və DİN-ə məsələnin araşdırılması üçün müraciət etmişdir. Araşdırma nəticəsində sözü gedən şəxsin kamerada pəncərənin dəmir barmaqlıqlarından özünü boğazından döşəkağı ilə asaraq öldürdüyü müəyyən edilmişdir. Onun mühafizəsi ilə bağlı xidməti fəaliyyətlərində nöqsanlara yol verdiklərinə görə Masallı RPŞ-nin xidmət üzrə rəis müavininə və ictimai təhlükəsizlik bölməsinin rəisinə "şiddətli töhmət", məsul növbətçisinə "xidməti vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq" elan olunmuş, MSY-nin polis nəfəri daxili işlər orqanlarında xidmətdən xaric edilmişdir.

### *2.3. ƏN-in müəssisələri*

ƏN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 38 yer var[28] və 2012-ci il ərzində bu yerlərə MPQ tərəfindən 115 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

ƏN-dən daxil olmuş məktublardan, eləcə də həyata keçirilən təkrar başçəkmələrin nəticələrinin təhlilindən məlum olmuşdur ki, Azərbaycan MPM-nin ötən illər üzrə hesabatlarında göstərilmiş məsələlər nəzarətə götürülməklə araşdırılmış, onların həlli ilə əlaqədar nazirlik tərəfindən müvafiq işlər görülmüşdür. Penitensiar müəssisələrdə saxlanma şəraitinin yaxşılaşdırılması, təqsirləndirilən şəxslərin, məhkumların hüquq və azadlıqlarının təmin olunması, işçi heyət arasında nizam-intizamın möhkəmləndirilməsi, onların peşəkarlığının artırılması məqsədi ilə tədbirlər həyata keçirilmişdir.

2012-ci ildə, həmçinin məhkumların saxlanma şəraitinin milli və beynəlxalq standartlara uyğunlaşdırılması üzrə müəssislərdə təmir-tikinti, yenidənqurma işləri, maddi-texniki bazanın möhkəmləndirilməsi, regionlarda Avropa Komitəsinin tövsiyələri də nəzərə alınmaqla yeni penitensiar müəssisələrin inşası davam etdirilmişdir. MTCM-lərdə mövcud saxlanma şəraitinin milli qanunvericiliyin və beynəlxalq aktların tələblərinə uyğunlaşdırılması ilə əlaqədar zəruri tədbirlərin görülməsi barədə aidiyyəti orqanlara müraciətlər ünvanlanmış və qanunvericiliyə dəyişikliklər edilməsi məqsədi ilə təkliflər verilmişdir.

Ötən il PX-nin 3 saylı istintaq təcridxanasında tibb xidmətini gücləndirmək məqsədi ilə digər tibb müəssisələrindən 2 nəfər həkim müəssisənin TSH-sinə ezam edilmiş, həmçinin 2 nəfər həkim işə qəbul olunmuşdur. Bununla yanaşı, təcridxanada zəruri tibbi avadanlıqlarla təchiz edilmiş yeni stomatoloji kabinet yaradılmışdır. Eyni zamanda həkiməqədər tibbi yardım barədə biliklərin aşılanması məqsədi ilə Həbsxananın PX əməkdaşlarına ilkin tibbi yardım barədə məlumatlandırıcı kurslar təşkil edilmişdir. İstirahət günlərində məhkumlara tibbi xidmət göstərilməsi üçün həkimlərin iş cədvəli yaradılmışdır.

CÇM-lərdə məhkumlar üçün daimi iş yerlərinin yaradılması, fərdi əmək fəaliyyəti ilə məşğul olmanın stimullaşdırılması üzrə tədbirlər həyata keçirilmişdir və 2011-2012-ci illər ərzində penitensiar müəssisələrdə məhkumların ictimai faydalı əməyə cəlb olunması 25,2% artmışdır.

2012-ci ildə həmçinin Tərbiyə müəssisəsinin nəzdində fəaliyyət göstərən Himayəçilik Şurasının yeni tərkibi təsdiq edilmişdir. ƏN-in verdiyi

---

[28]Bax: Əlavə 1

məlumata görə, adı çəkilən Şuranın işinin səmərəliliyinin artırılması PX tərəfindən diqqət mərkəzində saxlanılır.

Göstərilənlərlə yanaşı, ƏN-in tabeliyində olan müvafiq qurumların əməkdaşları tərəfindən Konvensiyanın, FP-nin, bu sənədlərlə əlaqədar milli qanunvericiliyin, eləcə də məhkumlarla davranışa dair beynəlxalq və milli sənədlərin öyrənilməsi və xidməti fəaliyyətdə tətbiqi ilə əlaqədar nazirlik tərəfindən mütəmadi seminarlar və treninqlər keçirilmiş, maarifləndirici materiallar, o cümlədən CİM-in elmi-praktik kommentariyası, eləcə də cəzaların icrası ilə əlaqədar beynəlxalq və milli normativ aktlar toplusu çap edilərək PX əməkdaşlarına, habelə müəssisələrin kitabxanalarına paylanılmışdır.

Qeyd olunanlar və başçəkmələr zamanı toplanmış məlumatlar üzrə aparılmış ümumiləşdirməyə əsasən qeyd etmək olar ki, ƏN-in müəssisələrindəki ümumi vəziyyət, saxlama şəraiti, eləcə də saxlanılan şəxslərlə rəftar qənaətbəxş səviyyədə təşkil olunmuşdur və bir çox müəssisələr standartlara cavab verir. Başçəkmələr zamanı bəzi çatışmazlıqlar da aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

İlk növbədə qeyd etmək lazımdır ki, Müvəkkil qış aylarında havanın çox soyuq olması ilə əlaqədar su, elektrik və qaz təchizatında bir sıra çətinliklərin yaranması hallarının müşahidə edildiyini nəzərə alaraq, CÇM-lərdə yataqxanaların qızdırılması vəziyyətindən narahatlığını ifadə etmiş və PX-yə müraciət ünvanlamışdır. Daxil olmuş cavab məktubunda bildirilmişdir ki, göstərilənlər nəzərə alınaraq məhkumların yataqxana binalarının qızdırılması ilə bağlı 2, 5, 7, 8, 9, 12, 13 və 16 saylı CÇM-lərdə və MM-də mərkəzi istilik sistemləri quraşdırılmış, digər müəssisələrdə isə müxtəlif qızdırıcılardan istifadə təşkil olunmuşdur.

Müvəkkil, həmçinin yay aylarında havanın çox isti keçməsi ilə əlaqədar məhkumların saxlanılması şəraitində yarana biləcək çətinliklərlə əlaqədar CÇM-lərin yataqxanalarının, habelə cərimə təcridxanalarının havalandırılması, məhkumların içməli su ilə təmin edilməsi vəziyyətinin ciddi diqqətdə saxlanılması tövsiyəsi ilə PX-yə müraciət etmişdir və tövsiyələr nəzərə alınaraq CÇM-lərdə yataqxanaların, habelə cərimə təcridxanalarında kameraların isti yay aylarında havalandırılmasının yaxşılaşdırılması və məhkumların fasiləsiz olaraq içməli su ilə təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülmüş, müəssisələrdə içməli suyun verilməsində qəza halları ilə bağlı yaranan qısa müddətli fasilələr aidiyyəti xidmət sahələri tərəfindən operativ olaraq aradan qaldırılmışdır.

Göstərilənlərlə yanaşı, ötən dövr ərzində Müvəkkil penitensiar müəssisələrdə saxlanılan əlilliyi olan, habelə İİV/QİÇS, hepatit, narkomaniya, vərəm, şəkərli diabet, və başqa ağır xəstəliklərdən əziyyət

çəkən insanların saxlanma şəraiti, müayinə və müalicəsi ilə maraqlanmış, bu qəbildən olan insanlarla bağlı həyata keçirilən tədbirlərin diqqətdə saxlanılması barədə PX-yə müraciət etmişdir. Daxil olmuş cavab məktubunda 2012-ci ilin əvvəlində PX-nin müəssisələrində İİV/QİÇS-ə, müxtəlif virus mənşəli hepatitlərə yoluxmuş, diabet xəstəliyinə düçar olmuş, vərəm və narkomaniyadan əziyyət çəkən məhkumlarla yanaşı, 458 nəfər əlilliyi olan məhkum saxlandığı bildirilmişdir. İİV/QİÇS-ə yoluxmuş məhkumlardan bir qismi Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən Antiretrovirus müalicəsi qəbul edir. Vərəmə yoluxmuş məhkumların müalicəsi İxtisaslaşdırılmış müalicə müəssisəsində həyata keçirilir. Narkomaniyaya düçar olmuş məhkumlar saxlanıldıqları müəssisələrdə və MM-də, məhkəmənin hökmünə əsasən, məcburi müalicə alırlar.

Yuxarıda göstərilən xəstəliklərdən əziyyət çəkən məhkumlar TSH-lərdə dispanser qeydiyyatına götürülür və mütəmadi olaraq dövri tibbi müayinələrdən keçirilir, daim həkim nəzarəti altında saxlanılırlar. Şəkərli diabet xəstəliyinə düçar olmuş xəstə məhkumlar PX rəhbərliyinin əmrinə əsasən pəhriz qidaları ilə təmin olunurlar. PX tərəfindən, həmçinin xəstə və əlil məhkumların qidalanmasının daha yüksək kilokalori ilə müəyyən edilmiş gündəlik ərzaq normalarına[29] ciddi riayət olunmaqla təşkil edildiyi və bu işin daim nəzarətdə saxlanıldığı bildirilmişdir. CİM-in tələblərinə uyğun olaraq, I və II qrup əlilliyi olan məhkumlar cəzadan azad edilərkən onların ərizələrinə əsasən, habelə CÇM müdiriyyətinin təqdimatı ilə ƏƏSMN tərəfindən əlillər və ya qocalar evinə göndərilirlər.

***Həbsxanada*** həyata keçirilən başçəkmə zamanı ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin günün 23 saatını kamerada keçirməsinin (gün ərzində yalnız 1 saatlıq gəzinti verilir) narahatlıq doğurduğu və bu kateqoriyadan olan məhkumların asudə vaxtlarının daha faydalı keçirilməsi üçün müvafiq tədbirlərin görülməsinin zəruri olduğu qənaətinə gəlinmişdir. Başçəkmə zamanı, həmçinin cərimə təcridxanasının bəzi kameralarının ölçüsünün standartlara uyğun olmadığı aşkar edilmişdir. Göstərilən hallarla bağlı Müvəkkilin ƏN-ə müraciəti üzrə daxil olmuş məktubla bildirilmişdir ki, Bakı şəhəri Umbakı qəsəbəsində inşası davam etdirilən müasir tipli Həbsxana kompleksində məhkumların gündəlik idmanla məşğul olmaları məqsədi ilə lazımi şəraitə malik meydançaların yaradılması, habelə istehsalat sahəsinin təşkili nəzərdə tutulmuşdur. Eyni zamanda, yeni həbsxanada məhkumların açıq havada olma vaxtının artırılması məqsədi ilə hər bir kamera üçün ayrıca gəzinti sahəsi inşa edilir. Cərimə təcridxanasında mövcud problemlər yeni inşa olunan müəssisədə öz həllini tapacaqdır.

---

[29]Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkumların yemək və maddi-məişət normaları"

MPQ tərəfindən il ərzində diqqət mərkəzində saxlanılan Həbsxanaya təkrar başçəkmə həyata keçirilmiş və Müvəkkil tərəfindən ƏN-ə Həbsxananın girişindəki gözləmə otağında, həmçinin əvvəllər cərimə təcridxanası qismində istifadə olunmuş, hazırda saxlama kamerası olan kameralarda şəraitin yaxşılaşdırılması, cərimə təcridxanasının bəzi kameralarında sıxlığa səbəb olan artıq çarpayıların çıxarılması, intihara meylli məhkumlarla profilaktik işin aparılması, habelə məhkumların telefon danışıqları üçün nəzərdə tutulmuş telefon xətlərinin sayının artırılması ilə bağlı tövsiyələr ünvanlanmışdır. PX tərəfindən tövsiyələr nəzərə alınaraq, gözləmə otağında kosmetik təmir işlərinin aparılması təmin edilmiş, cərimə təcridxanasında və əvvəllər bu məqsədlə istifadə edilmiş kameralarda şəraitin yaxşılaşdırılması ilə bağlı tədbirlər 2013-cü ilin təmir işləri siyahısına salınmış, burada normativdən artıq çarpayılar çıxarılmışdır. İntihara və özünə xəsarət yetirməyə meylli məhkumların aşkar edilərək nəzarətin gücləndirilməsi, onlarla profilaktik və psixoloji tədbirlərin görülməsi məqsədi ilə tapşırıqlar verilmiş və nəticəsi nəzarətə götürülmüşdür. PX tərəfindən həmçinin məhkumların istifədəsindəki telefon xətlərinin sayının artırılacağı bildirilmişdir.

***1 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı yataqxanalarda döşəmələrin hələ də taxtadan olmadığı, məhkumların istifadəsindəki telefon xətlərinin məhkumların sayına nisbətdə az olduğu, ikinci mərtəbədə yerləşən TSH-nin pilləkəninin dəmirdən olması səbəbindən tibbi yardım alan şəxslərin həyatı üçün təhlükəli olduğu müəyyən edilmişdir. Müvəkkilin ƏN-ə müraciəti nəticəsindəmüəssisədə telefon xətlərinin sayı artırılaraq dördə çatdırılmış, yataqxanalarda döşəmələrin taxta ilə örtülməsi məqsədi ilə qüsur aktı tərtib edilmiş, maliyyə vəsaitindən asılı olaraq bu işlərin görülməsi, eyni zamanda TSH-nin pilləkəninin təmir edilməsinin nəzərdə tutulduğu bildirilmişdir.

***2 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı TSH-nin, hamamın, karantin otağının və klubun təmirə ehtiyacı olduğu, həmçinin cərimə təcridxanasında gəzinti yerinin təcridxananın tutumuna uyğun olmadığı müəyyən edilmişdir. Məsələ ilə əlaqədar Müvəkkil PX-yə müraciət ünvanlamışdır və qeyd olunan binaların təmir edilməsi, cərimə təcridxanasında gəzinti yerlərinin artırılması məsələləri PX-nin cari təmir obyektləri siyahısına daxil edilmişdir. Bundan əlavə, cərimə təcridxanasında standartlara cavab verməyən kameralarınistifadəsi, MPQ səfərlərinəticəsində,dayandırılmışdır.

***5 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı TSH-nin binasının qəzalı vəziyyətdə olduğu, əvvəlki başçəkmədən sonra hər hansı iş aparılmadığı, stomatoloqun otağında yararsız avadanlığın olduğu müəyyən

edilmişdir. Bəzi məhkumlar söhbət zamanı tibbi xidmətin keyfiyyətindən narazılıqlarını ifadə etmişlər. Sözü gedən məsələlərlə əlaqədar Müvəkkil ƏN-ə müraciət etmişdir. ƏN-dən verilən məlumata görə, müəssisədə yataqxanaların döşəmələrinə taxta vurulması ilə bağlı cari təmir işlərinin aparılması məqsədi ilə qüsur aktı tərtib edilmişdir, maliyyə vəsaitinin ayrılmasından asılı olaraq bu işlər görüləcəkdir. Həmçinin yeni TSH-nin inşası qərara alınmışdır. Göstərilənlərlə yanaşı, TSH-nin fəaliyyəti yoxlanılmış, aşkar olunmuş çatışmazlıqlara və fəaliyyətində yol verdiyi nöqsanlara görə TSH-nin rəisinə "şiddətli töhmət" elan olunmuşdur.

*Müvəkkil hesab edir ki, həmin CÇM-də TSH-nin uzun müddət yararsız olması narahatlıq doğurur vətəəssüf ki, məsələ hələ də həll edilməmiş qalır.*

***6 saylı CÇM***-də həyata keçirilən başçəkmə nəticəsində sanitar qovşaqların sayının məhkumların sayına nisbətdə az olması, cərimə təcridxanasında kameraların müasir standartlara tam cavab verməməsi, həmçinin əcnəbilərin rejim qaydaları ilə tanışlıqda çətinlik çəkməsi, eləcə də müəssisədə ibadət üçün yalnız məscidin olması və bunun da digər dinlərdən olan məhkumların ibadətinə məhdudiyyət yaratması aşkar edilmişdir. Sözü gedən müəssisədə, həmçinin "cərimə təcridxanasına keçirilmə" növündə tənbeh tədbirinin tətbiqinə çox yer verildiyi qənaətinə gəlinmişdir. Göstərilənlərlə əlaqədar Müvəkkilin ƏN-ə müraciəti üzrə cavabda əlavə sanitar qovşaqların təşkili məqsədi ilə müvafiq yer ayrıldığı və tikilərək istifadəyə veriləcəyi, həmçinin cərimə təcridxanasının kameralarının artıq tam təmir edilərək saxlanma şəraitinin yaxşılaşdırıldığı bildirilmişdir. Cavab məktubundan həmçinin məlum olmuşdur ki, digər dindən olan cəmi 9 məhkumun ibadət etməsi üçün xüsusi otaq ayrılmışdır, DİQson dəyişikliklər nəzərə alınmaqla yenidən çap edilərkən məhkumların daha çox istifadə etdiyi digər dillərdə də nəşri məsələsinə baxılacaqdır.

PX tərəfindən həmçinin müəssisədə cəza çəkən məhkumların intizam vəziyyəti təhlil edilmiş və Müvəkkilə məlumat verilmişdir ki, rejim pozuntularına görə bəzi hallarda "cərimə təcridxanasına keçirilmə" növündə tənbeh tədbirinin tətbiqi dəfələrlə edilmiş xəbərdarlıqların nəticə verməməsi ilə əlaqədar olmuşdur. 2012-ci ilin 1-ci rübündə 149 rejim pozuntusu qeydə alınmışdırsa, 2011-ci ilin 1-ci rübündə bu, 209 hal təşkil etmişdir. Pozuntuya yol vermiş məhkumlardan 52 nəfəri (2011-ci ilin müvafiq dövründə - 93) barədə "cərimə təcridxanasına keçirilmə" növündə tənbeh tədbiri tətbiq edilmiş, "kamera tipli otağa keçirilmə" növündə tənbeh tədbiri isə ümumiyyətlə tətbiq edilməmişdir (2011-ci ildə - 43). Rejim pozucularının bir çoxu ilə tərbiyəvi söhbətlərin aparılması ilə kifayətlənilmiş, digər məhkumlar barəsində daha yüngül, yəni "xəbərdarlıq" və "töhmət" növündə tənbeh tədbirləri tətbiq edilmişdir.

Müvəkkil hesab edir ki, 6 saylı CÇM-ə başçəkmə zamanı verilmiş tövsiyələrin qısa müddət ərzində yerinə yetirilməsi müsbət qiymətləndirilməli və bu cür yanaşma digər müəssisə rəhbərlikərinin də nəzərinə çatdırılmalıdır.

***7 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı əvvəlki başçəkmələrlə müqayisədə məhkumlara göstərilən tibbi xidmətin vəziyyətinin yaxşılaşdığı müəyyən edilmişdir. Həmçinin bəzi yataqxanaların döşəmələrinin taxtadan olmadığı, məhkumların istifadəsindəki telefon xətlərinin məhkumların sayına nisbətdə az olduğu, habelə bəzi məhkumların əlillik dərəcəsinin təyin edilməsi ilə bağlı çətinliklərlə üzləşdiyi aşkar edilmişdir və Müvəkkil göstərilən məsələlərin həll olunması üçün ƏN və ƏƏSMN-ə müraciət etmiş, nəticədə məhkumların telefon danışıqları hüququnun qanunvericiliyə uyğun təmin edilməsi məqsədi ilə əlavə dörd telefon xətti ayrılmış, müvafiq yataqxanalarda taxta döşəmələrin vurulması təmir işləri siyahısına daxil edilmiş, həmçinin müvafiq məhkumların əlillik vəziyyətinin müəyyən edilməsi üçün zəruri tədbirlər görülmüşdür.

***9 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı müəssisədə məhkumların asudə vaxtının təşkili MPQ tərəfindən müsbət qiymətləndirilmişdir. Başçəkmə ilə, həmçinin sanitar qovşaqların sayının məhkumların sayına nisbətdə az olması aşkar edilmiş, həmçinin TSH-də yalnız bir nəfər həkimin fəaliyyət göstərməsi narahatlıq doğurmuşdur. Müvəkkilin ƏN-ə müvafiq tövsiyələrlə müraciəti üzrə daxil olmuş cavab məktubları ilə bildirilmişdir ki, PX tərəfindən tövsiyə nəzərə alınaraq, sanitar qovşaqların sayının artırılması barədə müəssisə rəhbərliyinə müvafiq göstəriş verilmişdir. Həmçinin ƏN Tibb baş idarəsindən sözü gedən müəssisənin həkim-stomatoloqunun həftənin iki günü 4 saylı CÇM-ə ezam olunduğu, tibb qardaşı ştatının vakant olduğu və kadrla təmin edilməsi ilə bağlı müvafiq tapşırığın verildiyi bildirilmişdir.

***10 saylı CÇM***-də həyata keçirilən başçəkmə zamanı da narahatlıq doğuran əsas məsələ əksər yataqxanaların döşəmələrinin taxtadan olmaması olmuşdur. Müvəkkil PX-yə müraciət etmiş, nəticədə CÇM-də cari təmir işlərinin aparılmasına dair qüsur aktı tərtib edilmiş, məhkum yataqxanalarında taxta döşəmənin vurulmasına başlanılmışdır. Bundan başqa, müəssisə rəhbərliyinə verilmiş tövsiyələr icra olunaraq günün rejim qaydaları üç dilə tərcümə edilmiş və görünən yerdə asılmışdır. Eyni zamanda, digər müəssisələrdən fərqli olaraq, cərimə təcridxanasında siqaret çəkməyən məhkumlar üçün ayrı kamera nəzərdə tutulmuşdur.

***14 saylı CÇM***-də həyata keçirilən başçəkmənin nəticəsində, məhkumların da xahişləri nəzər alınaraq, Müvəkkil tərəfindən ƏN-ə müəssisədə mövcud sıxlığın aradan qaldırılması, cərimə təcridxanasının standartlara uyğun çarpayılarla təmin edilməsi, məhkumların ərzaqlarını

saxlamaları üçün soyuducuların sayının artırılması, TSH-də mövcud vakant yerlərə kadrların qəbul olunması, eləcə də məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi üçün şəraitin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr ünvanlanmış, tövsiyələr üzrə PX və ƏN Tibb baş idarəsi tərəfindən müvafiq tədbirlər görülmüşdür. Yataqxanalardan istifadə edilməyən çarpayılar çıxarılaraq mövcud sıxlıq aradan qaldırılmış, cərimə təcridxanasının standartlara uyğun çarpayılarla təmin edilməsi işinə başlanılmış, müəssisəyə on ədəd əlavə soyuducu verilmiş, TSH-də vakant olan həkim-terapevt vəzifəsinə təyinat aparılması ilə bağlı müvafiq tədbirlər görülmüşdür. PX tərəfindən həmçinin bildirilmişdir ki, məhkumların asudə vaxtının səmərəli keçirilməsi məqsədi ilə müəssisənin klubunda televizor quraşdırılmışdır, əlavə televizor otaqlarının yaradılması məsələsi araşdırılır. Müəssisədə məhkumlar üçün yeni idman zalı avadanlıqla təchiz edilmiş və bu işlər başa çatmaq üzrədir. CÇM-də həmçinin futbol, voleybol, şahmat, dama və nərd üzrə məhkumların yarışları təşkil olunur. Bədii yaradıcılığın təmin edilməsi məqsədi ilə məhkumlardan ibarət bədii özfəaliyyət ansamblı, qiraət və poeziya dərnəyi fəaliyyət göstərir, radio qovşağı və altı minə yaxın kitab fondu olan kitabxana məhkumların istifadəsindədir. Müəssisədə həmçinin inşaatçı, dülgər peşələrini və kompüter biliklərini tədris edən kurslar var. Fərdi əməklə məşğul olan məhkumlar üçün mövcud emalatxananın genişləndirilməsi imkanları araşdırılır.

14 saylı CÇM-lə əlaqədar narahatlıq doğuran digər məsələ müəssisənin yaxınlığında yerləşən daş karxanasından, ekoloji tələblərə əməl edilməməsi nəticəsində, ətrafa yayılan tozun (xüsusilə küləkli hava şəraitində) müəssisə əməkdaşları və məhkumların sağlamlığına təhlükə yaratması olmuşdur ki, Müvəkkil bununla bağlı ƏN-lə yanaşı, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Qaradağ Rayon İcra Hakimiyyəti qarşısında məsələ qaldırmışdır. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən məsələ yerində araşdırılmış, CÇM-in yaxınlığında yerləşən mişar daşı karxanasına baxış zamanı yataq ərazisində istismarı başa çatmış sahələrdə rekultivasiya işlərinin tam həyata keçirilmədiyi, istismar zamanı əmələ gəlmiş tozun ətrafa yayılmasının qarşısını almaq məqsədi ilə sulama işlərinin aparılmadığı, vaqonların hərəkət mexanizminə nəzarətin zəif təşkil olunduğu və nəticədə ətrafa toz yayıldığı müəyyən edilmişdir. Göstərilənlərlə əlaqədar müvafiq şirkətlər barəsində akt tərtib edilmiş və nöqsanların aradan qaldırılması ilə bağlı rəhbərliklərinə icrası məcburi olan müddətli "məcburi göstəriş"lər verilmiş, tələblərin icrası nəzarətə götürülmüşdür.

*Lakin bu narahatlıq hələ də aradan qaldırılmamışıdır. Müvəkkil əlaqədar dövlət qurumlarını bu məsələyə ciddi yanaşmağa çağırır. Eyni*

*zamanda Müvəkkil sözü gedən müəssisədə məhkumların özlərinə xəsarət yetirməsi hallarının araşdırılmasının ƏN tərəfindən diqqətdə saxlanılmasını təkilf edir.*

***15 saylı CÇM****-*də həyata keçirilən başçəkmə zamanı məhkumların istifadəsindəki telefon xətlərinin, eləcə də hamamdakı duşların sayının məhkumların sayına nisbətdə az olduğu müəyyən edilmişdir. ƏN-ə edilmiş müraciət nəticəsində əlavə telefon xətti ayrılmış, həmçinin hamamda əlavə on iki duş quraşdırılaraq məhkumların istifadəsinə verilmişdir.

***17 saylı CÇM****-*də həyata keçirilən başçəkmə zamanı maddi şərait və tibbi təminatla bağlı bir sıra nöqsanlar aşkar olunmuşdur. Belə ki, cərimə təcridxanasında olan kameraların hər birində dörd ədəd çarpayı olmasına baxmayaraq, iki oturacaq olduğu, yeməkxanada işləyən məhkumların yataqxanasının şəraitinin qeyri-məqbul olduğu, görüş otaqlarının lazımi avadanlıqlarla təchiz edilmədiyi, bəzilərinin yararsız halda olduğu, asudə vaxtın keçirilməsi üçün otaqda şəraitin qeyri-qənaətbəxş olduğu, gəzinti yerinə kanalizasiya suyu axdığından yararsız vəziyyətə düşdüyü, müəssisənin ümumi korpuslarında sanitar qovşaqların sayının az olduğu müəyyən edilmişdir. Bundan başqa, korpuslarda bəzi su kranlarının qeyri-işlək olduğu aşkar edilmişdir ki, MPQ-nin təklifi ilə problem yerində aradan qaldırılmışdır. Müəssisədə, həmçinin məhkumların istifadəsində olan iki ədəd telefon xəttinin yetərli olmadığı, məhkumlar üçün müəyyən çətinliklər yaratdığı məlum olmuşdur.

Başçəkmə zamanı bəzi məhkumlar xəstəlikləri ilə bağlı TSH-yə qəbul edilmədiklərini və MM-ə göndərilmədiklərini bildirmişlər. Aparılmış araşdırma zamanı TSH-nn fəaliyyəti ilə bağlı bir sıra nöqsanlar, o cümlədən özünə xəsarət yetirmiş məhkumların vəziyyətinin öyrənilmədiyi, dərman preparatlarının səliqəsiz saxlanıldığı aşkar edilmişdir.

Başçəkmənin nəticələri ilə əlaqədar Müvəkkil ƏN-ə müraciət etmiş, nəticədə müəssisənin cərimə təcridxanasının kameralarında çarpayıların sayına uyğun oturacaqlar qoyulmuş, yeməkxanada mövcud olan otaqlardan artıq çarpayılar çıxarılmış və lazımi şərait yaradılmışdır. Uzun müddətli görüş otaqları dolabça və oturacaqlarla təchiz edilmiş, gəzinti sahəsinə yığılmış su qurudulmuş, burada təmizlik işləri aparılmış, təmirə ehtiyacı olan su kranları təmir edilmişdir. Cərimə təcridxanasının kameralarında və ümumi yaşayış yataqxanalarında istilik sisteminin tenləri yeniləri ilə əvəz olunmuş və normal temperatur yaradılmışdır. Müəssisədə məhkumların istifadəsində olan iki ayrı telefon xətti vasitəsi ilə qanunvericiliyin tələblərinə müvafiq olaraq məhkumların telefon danışıq hüquqları tam təmin edildiyindən, əlavə xəttə hələlik ehtiyac duyulmadığı müəyyən olunmuşdur. Qısa və uzun müddətli görüş otaqlarında təmir işlərinin aparılması və taxta döşəmələrin

vurulması, yataqxanalar üçün əlavə sanitar qovşaqların yaradılması və su kranlarının sayının artırılması, dam örtüyünün təmiri, eləcə də taxta döşəmələrin vurulması cari təmir işləri siyahısına daxil edilmişdir. ƏN-dən həmçinin bildirilmişdir ki, müəssisədə cəza çəkən 79 məhkum müalicə müəssisələrində, 6 məhkum isə TSH-də stasionar müalicəyə cəlb olunmuş və 215 məhkuma ambulator qaydada tibbi yardım göstərilmişdir. Müəssisənin TSH-si müxtəlif təyinatlı dərman preparatları ilə təmin olunmuşdur. Həmçinin məlum olmuşdur ki, aparılan araşdırma ilə özlərinə xəsarət yetirmiş məhkumların bunu əsəb sistemlərində pozuntularla bağlı etdikləri, lakin bu barədə heç kimə məlumat vermədikləri müəyyən edilmişdir. Onların özlərinə xəsarət yetirməyə meylli kimi TSH-nin həkimlərinin nəzarətinə götürüldüyü bildirilmişdir.

Sözü gedən müəssisə il ərzində MPQ tərəfindən diqqət mərkəzində saxlanılmış və təkrar başçəkmələr həyata keçirilmişdir. Müəyyən edilmişdir ki, suyun fasilələrlə verilməsi, bəzi yataqxanalarda sıxlıq və məhkumların istifadəsindəki telefon xətlərinin sayının az olması məhkumların narahatlığına səbəb olur. Müvəkkil məsələ ilə əlaqədar ƏN-ə müraciət etmişdir və su ilə bağlı problem həllini tapmış, yataqxanalarda istifadə edilməyən çarpayılar çıxarılaraq mövcud sıxlıq aradan qaldırılmış və müəssisəyə əlavə telefon xətti çəkilmişdir.

*Müvəkkil hesab edir ki, 17 saylı CÇM-də fiziki qüvvə və xüsusi vasitələrin tətbiqi zamanı bəzi hallarda adekvatlıq pozulur ki, bu da narahatlığa səbəb olur.Eyni zamanda, sözü gedən müəssisədə ötən il ərzində iki rəisin dəyişdirilməsi ƏN-in mövcud problemlərin həlli istiqamətində iş aparmasından xəbər verir.*

***5 saylı MTCM***-də həyata keçirilən başçəkmə zamanı müəssisədə saxlama həddinin aşıldığı, müvafiq qeydiyyat sənədlərində nöqsanlara yol verildiyi, yataqxanaların vəziyyətinin qeyri-qənaətbəxş olduğu aşkar olunmuş, bu barədə ƏN-ə müraciət edilmişdir. Daxil olmuş cavab məktubundan məlum olmuşdur ki, başçəkmə zamanı müəyyən edilmiş nöqsanlara görə müəssisə rəisi intizam məsuliyyətinə cəlb olunmağa layiq olsa da, tutduğu vəzifədə qısa müddətdə işlədiyi nəzərə alınaraq, ona "ciddi xəbərdarlıq" edilmiş və nöqsanların aradan qaldırılması barədə konkret tapşırıqlar verilmişdir.

*Müvəkkil hesab edir ki, gələcəkdə bu kimi halların təkrarlanmasının qarşısının alınması üçün daha qətiyyətli məsuliyyət tədbirləri tətbiq edilməlidir.*

***14 saylı MTCM***-də həyata keçirilən başçəkmə zamanı da müəssisədə saxlama həddinin aşıldığı, müvafiq qeydiyyat sənədlərində ciddi qüsurlara yol verildiyi, yataqxanaların vəziyyətinin qeyri-qənaətbəxş olduğu aşkar

olunmuşdur. Müəssisə rəhbərliyi həmçinin başçəkmə qrupuna qeyri-səmimilik nümayiş etdirmişdir. Göstərilənlərin araşdırılması ilə əlaqədar Müvəkkil ƏN-ə müraciət etmişdir və nəticədə sözü gedən müəssisənin fəaliyyətində müəyyən edilmiş nöqsan və pozuntularla bağlı ƏN-in Cəzaların icrasına nəzarət üzrə müfəttişliyi tərəfindən aparılmış xidməti yoxlamanın yekunları ilə bağlı müvafiq qərar qəbul edilmiş, PX üzrə əmr ilə xidməti fəaliyyətində kobud qanun pozuntularına, vəzifələrinin icrası ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə və ədliyyə işçilərinin etik davranış qaydalarını qərəzli pozduğuna görə müəssisənin rəisi vəzifəsi üzrə səlahiyyətləri müvəqqəti icra edən şəxsədliyyə orqanlarından xaric edilmiş, qanunla müəyyən edilmiş əsas vəzifələrini yarıtmaz yerinə yetirdiklərinə, fəaliyyətlərində qeyri-prinsipiallıq göstərdiklərinə, xidməti yoxlama zamanı ədliyyə orqanları işçilərinin etik davranış qaydalarını pozduqlarına görə rəisin növbətçi köməkçisinə“tutduğu vəzifəyə tam uyğun olmaması barədə xəbərdarlıq” edilmiş, böyük inspektor (dəstə rəisi) və əməliyyat-rejim şöbəsinin böyük inspektoruna(əməliyyat müvəkkili) “şiddətli töhmət” elan olunmuşdur.

Qeyd edilməlidir ki, bu başçəkmə ədliyyə naziri yanında məhkumların islah olunmasında ictimaiyyətin iştirakını təmin edən və ictimai nəzarəti həyata keçirən İctimai Komitə ilə birgə həyata keçirilmişdir.

***Bakı Ağır Cinayətlər Məhkəməsinin həbs edilmiş şəxslər üçün nəzərdə tutulan gözləmə otaqları*** da MPM-in 2012-ci ildə başçəkmə həyata keçirdiyi yerlərdən olmuşdur. Başçəkmə zamanı sözü gedən otaqlarda maddi şəraitin müasir tələblərə cavab vermədiyi, işıqlandırma və havalandırmanın qeyri-qənaətbəxş olduğu müəyyən edilmişdir. Məhkəmənin yeni inzibati binası tikilənədək mövcud gözləmə otaqlarının şəraitinin minimal standartlara uyğunlaşdırılması ilə əlaqədar əlavə tədbirlər görülməsi üçün Müvəkkil Bakı Ağır Cinayətlər Məhkəməsinə müraciət ünvanlamışdır. Daxil olmuş cavab məktubunda bildirilmişdir ki büdcə vəsaiti imkan verdiyi həddə gözləmə otaqlarında bəzi təmir işləri aparılaraq dəhlizin divar və tavanları, həmçinın taxta döşəmələr yenidən boyanmış, havalandırma qurğusunun iş mexanizmi yaxşılaşdırılmışdır. Həmin sahənin təbii işıqlandırılması və havasının dəyişdirilməsi üçün pəncərələrin açılmasının mümkün olmaması səbəbindən (yarımzirzəmi olduğundan) orada əlavə işıqlandırma vasitələri quraşdırılmışdır. Həmçinin 2013-cü ildə məhkəmənin saxlanma xərcləri çərçivəsində bəzi təmir işlərinin aparılması və mövcud havalandırma sisteminin standartlara cavab verən qurğularla əvəz edilməsi nəzərdə tutulmuşdur.

MPQ növbəti illərdə bütün məhkəmələrin gözləmə otaqlarına, eləcə də azadlıqdan məhrum edilmiş şəxslərin daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrinə başçəkmələr həyata keçirilməsini planlaşdırır.

### *2.4. MTN-in Müvəqqəti saxlama yeri və istintaq təcridxanası*

MTN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 1 yer var – MTN-in Müvəqqəti saxlama yeri və istintaq təcridxanası. 2012-ci il ərzində adı çəkilən müəssisəyə 2 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

Başçəkmələr zamanı müəssisədə maddi şərait, saxlanılan şəxslərlə rəftar, həmçinin qidalanma və tibbi xidmətin vəziyyətinin mövcud standartların tələblərinə cavab verən səviyyədə olduğu qənaətinə gəlinmiş, hər hansı çatışmazlıq aşkar olunmamışdır.

2012-ci il ərzində MTN tərəfindən cinayət işləri üzrə həyata keçirilən cinayət təqibi prosesində iştirak edən şəxslərin hüquq və azadlıqlarına riayət olunmasının tam təmin edilməsi, hüquqların pozulması hallarına yol verilməməsi istiqamətində görülən işlərlə yanaşı, həmçinin müvafiq istiqamətlərdə geniş maarifləndirmə tədbirləri də həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı daxili əmrlə nazirlikdə elan edilmiş və sənədin MTN-ə aid olan bəndlərinin icrasını təmin etmək məqsədi ilə aidiyyəti struktur bölmələrə tapşırıqlar verilmişdir. Bununla əlaqədar olaraq, MTN sisteminə daxil olan orqan və təşkilatlarda, həmçinin MTN-in Heydər Əliyev adına Akademiyasında Konvensiya və FP-nin tədris olunaraq öyrənilməsi işi təşkil olunmuş və digər maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

### *2.5. MN-in müəssisələri*

MN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 11yer var[30] və 2012-ci il ərzində bu yerlərə 5 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır. Başçəkmələr zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqlarla əlaqədar müvafiq tədbirlər görülmüşdür.

İlk növbədə qeyd etmək lazımdır ki, ***İntizam xarakterli hərbi hissədə*** həyata keçirilən başçəkmələr zamanı aşkar olunmuş, eləcə də MPM-in ötən ilki hesabatında əks etdirilmiş hallara HP tərəfindən çevik reaksiya verilməsi və müvafiq tədbirlərin görülməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Belə ki, HP tərəfindən həmin müəssisədə cəzaların icra edilməsi zamanı

[30]Bax: Əlavə 1

qanunlara və hərbi nizamnamələrə əməl olunması vəziyyəti yoxlanılmış və CİM-in, habelə "İntizam xarakterli hərbi hissə haqqında" Əsasnamənin[31] tələblərinin kobud şəkildə pozulması halları aşkar olunmuşdur. Müəyyən edilmişdir ki, hərbi hissəyə yeni gətirilmiş məhkumlar 15 gün müddətində karantin bölməsində saxlanılmalı olduğu halda, Əsasnamənin tələblərinə zidd olaraq, ilk gündən birbaşa intizam bölüyünə yerləşdirilmiş, bu da qabaqlayıcı və profilaktik tədbirlərin səmərəsini minimuma endirmiş, nəticədə həmin əsgərlərdən 44 %-i bilavasitə karantin dövründə törətdikləri xətalara görə intizam qaydasında cəzalandırılmışlar.

Bundan əlavə, aşkar edilmişdir ki, sözü gedən müəssisədə mövcud qanunvericiliyin tələbləri pozularaq hauptvaxt təşkil edilmədiyindən, ciddi intizam xətasına yol vermiş məhkum əsgər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin "Hauptvaxt haqqında" 4 saylı əlavəsinin tələblərinə zidd olaraq, cəza çəkmək üçün qarnizon hauptvaxtına göndərilmiş və 10 gün müddətində intizam qaydasında cəza çəkən digər əsgərlərlə birlikdə ümumi kamerada saxlanılmışdır. Qeyd edilənlərin, eləcə də yoxlama zamanı aşkar olunmuş digər qanun pozuntularının aradan qaldırılması məqsədi ilə HP tərəfindən MN-ə təqdimat göndərilmişdir.

***Gəncə Qarnizonu Hərbi polisinin hauptvaxtında*** həyata keçirilən başçəkmə zamanı müəssisədə təbii işıqlanmanın olmadığı, kameraların zəruri avadanlıqlarla təchiz edilmədiyi, kameralarda və xidməti otaqlarda döşəmənin beton örtükdən olduğu, eləcə də müəssisədə rütubətli vəziyyətinmövcudluğu müəyyən edilmişdir. Müəssisədə, həmçinin qeydiyyat və saxlanılan şəxslərin yerləşdirilməsi işi ilə əlaqədar nöqsanlara yol verildiyi aşkar edilmişdir. Göstərilənlərlə əlaqədar Müvəkkil MN-ə müraciət etmiş, nəticədə sözü gedən müəssisənin müasir tələblərə cavab vermədiyi nəzərə alınaraq, həmin hauptvaxtda əsaslı təmir işlərinə başlanılmışdır.

***Bərdə Qarnizonu Hərbi polisinin hauptvaxtında*** həyata keçirilən başçəkmə zamanı kameralarda və yeməkxanada döşəmənin beton örtükdən olduğu, kameralarda sanitar qovşaqların, eləcə də nəzarətçilərlə təxirə salınmadan əlaqə yaratmaq üçün siqnalizasiya sisteminin mövcud olmadığı müəyyən edilmişdir. Göstərilənlərlə əlaqədar Müvəkkil MN-ə müraciət etmişdir və həmin hauptvaxtda əsaslı təmir işləri aparılmışdır.

***Sumqayıt Qarnizonu Hərbi polisinin hauptvaxtında*** ötən illərdə verilmiş tövsiyələrin icra vəziyyətinin öyrənilməsi məqsədi ilə həyata keçirilən başçəkmə zamanı həmin müəssisənin fəaliyyətinin, mövcud standartlara cavab vermədiyi üçün, dayandırıldığı müəyyən edilmişdir.

[31]MN-in 2001-ci il 28 oktyabr tarixli 382 NQ nömrəli əmri ilə təsdiq edilmişdir.

Qeyd edilməlidir ki, sadalanan hauptvaxtlarda pis rəftarla bağlı hər hansı məlumat daxil olmasa da,həmin müəssisələrdə saxlanılma şəraiti narahatlıq doğurduğundan onların müasir tələblərə uyğunlaşdırılması məqsədi ilə bağlanılması Müvəkkil tərəfindən müsbət qiymətləndirilir.Sözü gedən hauptvaxtlarda saxlanılmalı şəxslər Bakı şəhərində müasir tələblərə uyğun,yeni tikilərək istifadəyə verilmiş hauptvaxtda saxlanılırlar.

### *2.6. SN-in müəssisələri*

SN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 18 yer var[32] və 2012-ci il ərzində bu yerlərə 8 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır. Başçəkmələr zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqlarla əlaqədar müvafiq tədbirlər görülmüşdür.

İlk növbədə qeyd etmək lazımdır ki, ötən ilki hesabatda göstərilən nöqsanların aradan qaldırılması istiqamətində SN tərəfindən 2012-ci il ərzində bir sıra məqsədyönlü işlər görülmüşdür. Belə ki, tibb personalının xəstələrlə rəftarı, davranışları və xəstələr arasında zorakılıq hallarının qarşısının alınması məsələləri müvafiq strukturlar və psixiatriya xəstəxanalarının müdiriyyəti tərəfindən ciddi nəzarətə alınmışdır. SN tərəfindən, həmçinin psixiatriya xəstəxanalarında xəstələrin hərəkətlərinin məhdudlaşdırılması və onların təcrid edilməsi ilə bağlı tədbirlərin tətbiqinə dair yeni təlimatlar hazırlanmışdır. Eyni zamanda, 2012-ci il ərzində psixiatriya xəstəxanalarının 20-dən çox şöbəsi əsaslı təmir olunmuş, 4 şöbə üçün yeni bina inşa olunaraq istifadəyə verilmişdir. Şöbələr müasir tibbi avadanlıqlar, çarpayılar, yataq dəstləri, xəstələr üçün geyim dəstləri, yumşaq inventar və televizorlarla təmin olunmuşlar. Həmçinin xəstələrin gündəlik qidalanmasının keyfiyyəti yaxşılaşdırılmışdır. SN-in müvafiq strukturları tərəfindən psixiatriya xəstəxanalarında xəstələrin saxlanılma şəraitinin, qidalanmasının yaxşılaşdırılması, həmçinin onların hərəkətlərinin məhdudlaşdırılması və digər xoşagəlməz halların dərhal aradan qaldırılması ilə bağlı yeni tədbirlərin tətbiqi məsələləri mütəmadi nəzarətə götürülmüşdür.

Ötən dövr ərzində SN tərəfindən maarifləndirmə tədbirləri də həyata keçirilmiş, hər bir xəstənin ailə üzvlərinə xəstəxananın daxili qaydaları və xəstələrin hüquqları ilə tanışlıq üçün kitabçalar paylanılmış, eləcə də tibb işçilərinin bilik səviyyəsinin artırılması məqsədi ilə bir qrup həkim və orta tibb işçisi təcrübə keçmək üçün Litva Respublikasına ezam edilmişlər.

***Qazax rayon Psixiatriya Xəstəxanasında*** həyata keçirilən başçəkmə zamanı müəssisədə sanitar qovşaqların istifadəyə yararsız, yeməkxana və mətbəxin antisanitariya vəziyyətində olduğu, gündəlik yemək menyusuna

---

[32]Bax: Əlavə 1

baxış keçirilərkən xəstələrə lazımi kaloridə yemək verilmədiyi, həmçinin ət məhsullarının az verildiyi, eləcə də xəstəxananın 2-ci mərtəbəsində yerləşən, kişi xəstələrin saxlanıldığı bəzi otaqların minimal normalara cavab vermədiyi, 2 təmir olunmuş otaq olmasına baxmayaraq xəstələrin oraya köçürülmədiyi, habelə tibb bacıları və sanitarların otağında xidmətdənkənar əşyalar olduğu müəyyən edilmişdir. Başçəkmənin yekununda xəstəxananın baş həkimi ilə aparılan söhbət zamanı qeyd olunan hallar diqqətə çatdırılaraq nöqsanların qısa müddət ərzində aradan qaldırılması üçün müvafiq təkliflər verilmişdir. İlin sonunda sözü gedən xəstəxanada təkrar başçəkmə zamanı göstərilən nöqsanların əksəriyyətinin aradan qaldırıldığı, kişilər üçün nəzərdə tutulan palataların isə yaxın vaxtlarda təmir edilməsi ilə bağlı müvafiq iş aparıldığı müəyyən edilmişdir.

***Gəncə şəhər Psixiatriya Xəstəxanasında*** həyata keçirilən başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisənin 1935-ci ildə tikilən binasında əsaslı təmir sonuncu dəfə 1982-ci ildə aparılmışdır, cari təmir işləri müəssisənin daxili imkanları və humanitar təşkilatlar tərəfindən edilən yardımlar hesabına aparılır.

Müəssisədən verilən məlumata əsasən, xəstələrin qidalanması üçün olduqca cüzi məbləğdə vəsait ayrılır ki, bu da müəssisədə saxlanılanların gündəlik keyfiyyətli qida ilə təmin edilməsinə, müalicə və psixoloji reabilitasiya prosesinin sürətlə getməsinə imkan vermir. Bundan əlavə, xəstələrin müalicəsi üçün nəzərdə tutulmuş dərman preparatlarının azlığı da problemli məsələ olaraq qalmaqdadır. Müəssisədəki ixtisaslı həkimlərin sayının az olması səbəbindən 15 xəstəyə 1 həkim düşür ki, bu hal da mövcud standartların tələblərinə uyğun olmamaqla yanaşı, həm də müalicə prosesinin səmərəliliyinin azalmasına gətirib çıxarır. Xəstəxanada rentgenoloq ştatı vakant olduğundan, rentgen otağı da fəaliyyətsiz qalmışdır.

Başçəkmə zamanı, həmçinin kişilər üçün nəzərdə tutulmuş iki şöbənin sanitar qovşaqlarının və hamamlarının vəziyyətinin qeyri-məqbul olduğu, şöbələrdən ikisinin mərkəzləşdirilmiş istilik sistemi, digər ikisinin isə müxtəlif elektrik qızdırıcıları vasitəsi ilə isidildiyi müəyyən edilmişdir.

Göstərilənlərlə yanaşı, xəstələrin asudə vaxtlarının səmərəli təşkili üçün müəssisədə yaradılmış musiqi, rəsm, tikiş, idman dərnəklərinin fəaliyyəti, həmçinin ibadət otağı, stolüstü oyunlar, həyətdə voleybol meydançasının mövcudluğu, habelə hər şöbədə poçt qutularının quraşdırılması müsbət qiymətləndirilir.

Qeyd edilməlidir ki, MPQ-nin ***Mingəçevir psixonevroloji dispanserində*** həyata keçirdiyi başçəkmə zamanı da xəstələr üçün ayrılan gündəlik ərzaq normasının və dərman xərclərinin tələbatı ödəmədiyi müəyyən edilmişdir.

Ümumiyyətlə, müvafiq xəstəxanalarda öz iradəsi ilə tərk etməsinə icazə verilmədən saxlanılan şəxslərin bütün günü qapalı şəraitdə qalmaları Müvəkkili narahat edən hallardan olmuşdur. Müvəkkil həmçinin Azərbaycan Respublikasının Milli Məclisində növbəti ilin büdcə layihəsinin müzakirəsində çıxış edərək xəstələrin müəssisələrdə gün ərzində qidalanması və müalicəsi üçün nəzərdə tutulan vəsaitin artırılmasını təklif etmişdir.

### *2.7. TN-in müəssisələri*

TN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 41 yer var[33] və 2012-ci il ərzində bu yerlərə 3 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

***Quba xüsusi peşə məktəbində*** həyata keçirilən başçəkmə zamanı MPQ yataqxanalar, sinif, tərbiyə və istirahət otaqlarının, kitabxana, mətbəx, yeməkxana, hamam və inzibati otaqların vəziyyəti, eləcə də saxlanma şəraiti, rəftar, təhsil, asudə vaxtın təşkili vəziyyəti ilə tanış olmuş, həmçinin müəssisədəki uşaqlarla təkbətək söhbətlər, onların hüquqlarına dair izahat işləri aparmışdır.

Başçəkmələr, eləcə də Azərbaycan MPM-nin ötən illər üzrə hesabatlarında göstərilmiş məsələlər üzrə həyata keçirilən tədbirlərlə əlaqədar TN-dən verilən məlumatlardan məlum olmuşdur ki, müvafiq istiqamətlər üzrə bir sıra məqsədyönlü addımlar atılmışdır. Belə ki, müxtəlif hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanların xüsusi şəraitdə tərbiyə müəssisəsi olan Quba xüsusi peşə məktəbinin yerləşdiyi, çar Rusiyası dövründə tikilmiş, uyğunlaşdırılmış binada məktəbin spesifik iş şəraitini təmin etmək üçün müvafiq tədbirlər görülmüşdür. Son illərdə məktəbdə şagirdlərin saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə ayrı-ayrı xidmət otaqlarında cari təmir işləri aparılmış, bütün otaqlar lazımı avadanlıq və inventarlarla təchiz edilmişdir. Məktəbin yataqxanası isitmə sistemi, digər xidmət otaqları odun yanacağı ilə qızdırılır. 2012-2013-cü qış mövsümü üçün məktəb lazımı qədər yanacaq odunla təmin olunmuş, yataqxanaya isti su verilməsi üçün su qızdırıcısı quraşdırılmışdır. Məktəbin kanalizasiyası yoxdur. Quba şəhərinin kanalizasiya və su sistemlərinin yenidən qurulması ilə əlaqədar məktəbin bu sistemlərə qoşulması mümkün olacaq.

Şagirdlər sözü gedən məktəbə qəbul olunduqda onlar psixoloji, tibbi nəzarətə alınır, onların reabilitasiyasının dərəcəsini və dinamikasını müəyyənləşdirmək üçün xüsusi, konfidensial dəftər açılır bu dəftərdə hər bir şagirdin bioqrafik göstəriciləri,məktəbdə aldığı təltiflər, tənbehlər, rejimin pozulması barədə məlumatlar, davranış motivləri, psixoloji keyfiyyətləri,

---
[33]Bax: Əlavə 1

davranış stili, xarakter əlamətləri, pis vərdişlərə meyli və s. göstəriciləri, eyni zamanda təhsilə, peşəyə, ictimai işlərə, şagird yoldaşlarına və valideynlərə, məktəbin əməkdaşlarına münasibəti əks olunur.

Məktəbin tibb məntəqəsi şagirdlərin sağlamlığının qorunmasına, onların müalicəsinə, profilaktik işlərin həyata keçirilməsinə, məktəbin sanitar gigiyenik vəziyyətdə saxlanmasına, şagirdlərin normal qidalandırılmasına, şəxsi gigiyena tədbirlərinin vaxtı-vaxtında həyata keçirilməsinə nəzarət edir və cavabdehlik daşıyır. Məktəbin şagirdləri vaxtaşırı kompleks tibbi müayinədən keçirilir. Tibb məntəqəsi kifayət qədər dərman preparatları və sarğı vasitələri ilə təmin olunmuşdur.

Məktəbdə valideynlərin uşaqları ilə görüşməsinə məhdudiyyət qoyulmur və şagirdlər istədikləri vaxt valideynləri və ya qohumları ilə telefon əlaqəsi saxlaya, məktublaşa bilər.

*Göstərilənlərlə yanaşı, həmçinin məlum olmuşdur ki, məktəbdə bir psixoloq ştat vahidi olsa da, kadr çatışmazlığından ştat boş qalmışdır və bu, məktəbdə psixoloji xidmətin normal həyata keçirilməsinə imkan vermir. Uşaqların şəxsiyyət vəsiqəsi əldə etməsində çətinliklərin mövcudluğu, həmçinin müəssisə əməkdaşlarının əmək haqlarının aşağı olması da narahatlıq doğuran hallardan olmuşdur.*

### *2.8. ƏƏSMN-in müəssisələri*

ƏƏSMN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 8 yer var[34] və 2012-ci il ərzində bu yerlərə 2 başçəkmə həyata keçirilmişdir. Başçəkmələrin aparılması üçün qanunvericiliyin tələblərinə uyğun zəruri şərait yaradılmışdır.

Azərbaycan MPM-nin ötən illər üzrə hesabatlarında göstərilmiş məsələlərlə bağlı həyata keçirilən tədbirlərlə əlaqədar ƏƏSMN-dən verilən məlumatlardan məlum olmuşdur ki, nazirliyin tabeliyində fəaliyyət göstərən sosial xidmət müəssisələrində xidmətin keyfiyyətinin yaxşılaşdırılması və müasir standartlara çatdırılması məqsədi ilə mövcud ştat cədvəlinə ştatların əlavə olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət olunmuşdur.

ƏƏSMN-dən verilən məlumata əsasən, sosial xidmət müəssisələrində saxlanılan şəxslərə mütəmadi olaraq ilkin tibbi xidmətlər göstərilir, ehtiyac olduğu təqdirdə stasionar müalicə və reabilitasiya məqsədi ilə müvafiq tibb müəssisələrinə və sanatoriyalara göndərilirlər.

Əqli geriliyi olan uşaqlar üçün fəaliyyət göstərən sosial xidmət müəssisələrində, yaş və fərdi xüsusiyyətlərə uyğun olaraq, hər bir uşaq üçün

---

[34]Bax: Əlavə 1

fərdi iş planı tərtib edilmişdir və həmin plan üzrə uşaqlarla mütəmadi iş aparılmaqdadır.

ƏƏSMN, həmçinin müvafiq istiqamətlər üzrə maarifləndirmə tədbirləri keçirərək, tabeliyindəki bütün sosial xidmət müəssisələrində çalışan sosial xidmət işçilərini peşə bacarıqlarının artırılması və bu sahədə yeni təcrübələrin öyrənilməsi məqsədi ilə təlimlərə cəlb etmişdir.

***Şağan 3 saylı Əqli geriliyi olan uşaqlar üçün internat evində*** və ***Saray 7 saylı Əqli geriliyi olan uşaqlar üçün internat evində*** həyata keçirilən başçəkmə zamanı bu müəssisələrin maddi-texniki bazasının Heydər Əliyev Fondunun dəstəyi ilə tamamilə yenilənərək müasir standartlara uyğunlaşdırıldığı məlum olmuşdur. Başçəkmə zamanı MPQ yataqxana, hamam, sanitar qovşaq, məşğələ otağı, tikiş sinfi, musiqi zalı, mətbəx, ərzaq anbarı, eləcə də yeni yaradılmış idman zalının vəziyyəti ilə tanış olmuş, danışmaq iqtidarında olan uşaqlarla söhbət aparmışlar. Müəssisədə lazımi şərait yaradıldığı müəyyən edilmişdir.

*Göstərilənlərlə yanaşı, Müvəkkil hesab edir ki, bu müəssisələrin işçi heyəti özünə xəsarət yetirməyə meylli uşaqlarla profilaktik işin aparılmasına dair mütəmadi məlumatlandırılmalı, müsbət beynəlxalq təcrübə öyrənilməlidir.*

*Müvəkkil, həmçinin ƏƏSMN-nin tabeliyində olan Göygöl 8 saylı İxtisaslaşdırılmış ruhi-əsəb internat evində baş vermiş ölüm hallarından narahatlığını ifadə edərək, aidiyyəti qurumları sözü gedən halları hərtərəfli araşdırmağa çağırır.*

## BÖLMƏ 3.

## HÜQUQİ TƏHLİL

Həyata keçirilən fəaliyyət, eləcə də Aparatda bu və ya digər ərizə və şikayətin araşdırılması zamanı aşkar olunan hallar, onları doğuran səbəb və şəraitlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, eləcə də əldə olunmuş nəticələrin ümumiləşdirilməsi işi Azərbaycan MPM-nin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Göstərilən fəaliyyət sahəsinə, həmçinin mütəmadi olaraq beynəlxalq təcrübə, müxtəlif ölkələrin MPM-lərinin iş üslubu və nailiyyətlərinin təhlil edilməsi və qabaqcıl vasitələrin MPM-in işində tətbiq edilməsi üçün tədbirlər görülməsi də aiddir.

Həyata keçirilən hüquqi təhlil işi nəticəsində mütəmadi olaraq istər qanunverici, istərsə də təşkilati məsələlər üzrə işlənib hazırlanan təklif və tövsiyələr Müvəkkil tərəfindən aidiyyəti dövlət orqanlarına göndərilir və tədricən öz müsbət həllini tapır.

Ötən illərdə olduğu kimi, 2012-ci ildə də Müvəkkilin MPM qismində mandatı üzrə qanunvericilik bazasının gücləndirilməsi üçün təkliflərin işlənib hazırlanması sözü gedən fəaliyyətin tərkib hissəsi kimi çıxış etmişdir. Sözü gedən istiqamətdə hələ də həllini gözləyən məsələlər qalsa da,[35] hesabat ilində əhəmiyyətli müsbət nəticələr əldə olunmuşdur.[36]

2012-ci il həmçinin işgəncələrin qarşısının alınmasının daha etibarlı təmin edilməsi məqsədi ilə mövcud normativ-hüquqi bazanın, Müvəkkilin də təklifləri nəzərə alınmaqla, təkmilləşdirilməsi ilə yaddaqalan olmuşdur. İlk növbədə qeyd olunmalıdır ki, Müvəkkil həm əvvəlki MPM hesabatında, həm də müvafiq yazışmalarında şübhəli və təqsirləndirilən şəxslərin saxlanıldıqları müəssisələrin fəaliyyətinin, eləcə də orada saxlanılan şəxslərin hüquq və azadlıqlarının daha yüksək səviyyədə qanunverici tənzimlənməsinin vacib olduğunu, müvafiq qanunun qəbul edilməsinin tezləşdirilməsinin zəruriliyini bildirmişdir. Nəhayət, 22 may 2012-ci il tarixdə Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Qanun[37] qəbul edilmişdir. Bu Qanunla tutulmuş, həbs edilmiş, məhkum olunmuş şəxs anlayışları, həbs yerlərinin növləri və onlarda

---

[35] Məsələn, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə əlaqədar verilmiş təkliflər.

[36] Bax: bu hesabatın 1.1-ci bəndi

[37] Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ)

rejim qaydaları müəyyən edilmiş, həbs yerlərində saxlanılan şəxslərin hüquqi vəziyyəti, rejimin, dövlət və ictimai nəzarətin təmin olunması məsələləri tənzimlənmişdir. Qanun, həmçinin işgəncələrlə mübarizə sahəsində də effektli təsir imkanlarına malikdir. Sözü gedən qanunun 22-ci maddəsində tutulmuş və ya həbs edilmiş şəxslər həbs yerlərinə qəbul edildikdən dərhal sonra onlarda hər hansı müşahidə olunan bədən xəsarətləri və həbs yerinə daxil olanadək məruz qaldıqları hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayətlərinin qeydiyyata alınması, 24 saat ərzində həbs yerinin tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməsi, müayinənin nəticələrinə dair müvafiq qeydiyyatın aparılması, işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar ilə əlaqədar şikayətlərin, habelə tibbi müayinə zamanı müəyyən edilən işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar nəticəsində törədildiyi güman edilən bədən xəsarətləri barədə yazılı məlumatların müvafiq araşdırma aparılması üçün dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi, tutulmuş və ya həbs edilmiş şəxslərin, yaxud onların müdafiəçisinin vəsatəti əsasında tibbi müayinənin dövlət və ya özəl tibb müəssisələri tərəfindən həyata keçirilməsi və s. müddəalar nəzərdə tutulmuşdur.

Göstərilən qanun, həmçinin ilk dəfə olaraq həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin qanunverici tənzimini təsbit etmişdir. Belə ki, istintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması və ya həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti olduqda və onun hər gün gətirilib aparılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəmənin əsaslandırılmış qərarı ilə 1 ayda 10 gündən artıq olmayan müddətə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilə bilər. Şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər. Şəxs istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirildikdə və geri qaytarıldıqda tibbi müayinədən keçirilir. Qanun, həmçinin şəxsin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məqsədi ilə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini qadağan edir.[38]

Həmin qanunda tutulmuş və ya həbs edilmiş şəxslərin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş bəzi hüquqları daha ətraflı əks etdirilmiş, eləcə də işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq; etik davranışa uyğun rəftar olunmaq; həbs yerinə qəbul edildikdən dərhal sonra və həbsdə saxlama zamanı öz hüquq və vəzifələri, Daxili intizam qaydaları, o cümlədən həbs

[38] Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ), maddə 8

yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası ilə yazılı şəkildə onlara aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq; həbs yerinin müdiriyyəti tərəfindən qəbul edilmək; həbsdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı təklif, ərizə və şikayətlərlə müraciət etmək; hər gün iki saatdan az olmayaraq gündəlik gəzintiyə çıxarılmaq (əvvəlki normativlərdə 1 saat nəzərdə tutulurdu); psixoloji yardım almaq; habelə, ədəbiyyatdan, o cümlədən xüsusi ədəbiyyatdan istifadə etmək, dini ayinləri yerinə yetirmək və s. kimi hüquqları əks etdirilmişdir. Həbs edilmiş şəxslərin göstərilənlərdən əlavə, həmçinin yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə ayda 4 dəfə 4 saatadək müddətə ləyaqətli şəraitdə və nəzarət altında görüşmək; qəzet və jurnallara abunə yazılmaq; pul baratları almaq və yaxın qohumlarına pul baratları göndərmək; nikah bağlamaq və nikahı pozmaq; həftədə iki dəfə 15 dəqiqəyədək müddətdə telefonla danışmaq; televiziya verilişlərinə baxmaq və s. hüquqları təsbit edilmişdir.[39]

Qeyd olunan qanunun qüvvəyə minməsi bir sıra digər normativ hüquqi aktların da qəbulunu[40], eləcə də mövcud aktlara dəyişikliklər[41] edilməsini şərtləndirmişdir. Bundan başqa, ƏN tərəfindən hazırlanmış "Həbs yerlərində Daxili intizam qaydaları"nın Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunması nəzərdə tutulmuşdur.

İşgəncələrin qarşısının alınması məqsədi ilə qanunvericilik çərçivəsində atılan növbəti səmərəli addım CM-də dəyişikliklər edilməsi ilə işgəncə əməlinin Konvensiyanın tələbləri ilə uyğunlaşdırılaraq daha geniş anlayışının təsbit olunması olmuşdur. Dəyişikliklərlə ifadə verməyə məcbur etmə əməlinə görə cinayət məsuliyyətini müəyyən edən 293-cü maddə yeni

---

[39] Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ), maddə 15, 19.6, 19.7.

[40] "Həbs edilmiş şəxslərin və məhkumların müşayiət edilməsi qaydaları haqqında Təlimat"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (29.12.2012, № 31-N); "Penitensiar müəssisələrdə yemək qəbul etməkdən imtina edən məhkumların, habelə həbs edilmiş şəxslərin saxlanma şəraiti və onların məcburi qaydada qidalandırılması haqqında Təlimat"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (29.12.2012, № 32-N); "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13)

[41] Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "İstintaq təcridxanaları və həbsxanalarda təqsirləndirilən şəxslərin və məhkumların qeydiyyatı işinin təşkili barədə Təlimat"da dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (29.12.2012, № 34-N)

redaksiyada verilmişdir. Belə ki, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar dövlət orqanının vəzifəli şəxsi və ya bu qisimdə çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhriki və ya razılığı ilə, yaxud o, xəbərdar olduğu halda başqa şəxslər tərəfindən işgəncə vermə, həmçinin şəxsi qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qoymaya görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Göstərilənlərlə yanaşı, həmçinin cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli tədbirlərin işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan xarakter və ya məqsəd daşımasının yolverilməzliyi CM-in və cinayət məsuliyyətinin prinsiplərindən biri olan humanizm prinsipinin tərkib elementi kimi müəyyən edilmişdir.[42]

2012-ci ildə həyata keçirilən başçəkmələr zamanı saxlanılan şəxslərlə aparılan çoxsaylı söhbətlərin və müvafiq qanunvericiliyin təhlili nəticəsində müəyyən edilmişdir ki, məhkumların sosial əlaqələrinin qorunub saxlanılmasının onların islah edilməsinə müsbət təsir göstərə biləcəyi nəzərə alınaraq, qohumları və digər şəxslərlə təmasda olmalarının hüquqi tənzimində bir sıra islahatlar aparılması zəruridir.

İlk növbədə qeyd etmək lazımdır ki, CİM-də bu barədə birbaşa göstəriş olmasa da, DİQmüxtəlif cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların bir-biri ilə görüşməsinə yol vermir.[43] Lakin hesab olunur ki, yarana biləcək təşkilati çətinliklərə rəğmən, *məhkumların yaxın qohumları olan digər məhkumlarla görüşməsinə şərait yaradılması məqsədəmüvafiqdir.*

Görüşlərlə bağlı həmçinin qeyd olunmalıdır ki, *görüşlərin təqdim edilmə vaxtının məhkuma il ərzində verilən eyni növlü görüşlərin sayının on iki aya bölünməklə müəyyən edilməsinin*[44] *aradan qaldırılması həm məhkumlar, həm də görüşə gələn şəxslər üçün daha münasib hesab olunur.*

Bundan başqa, qüvvədə olan qanunvericiliyə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslər isə həftədə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışmaq hüququna malikdirlər.[45] Lakin *DİQhər məhkumun qeyd olunan müddətdə yalnız bir abonentlə danışmasını şərtləndirir*[46] *ki, bu da məhkumların müəyyən olunmuş müddət daxilində müxtəlif ünvanlarda*

[42] Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (29.06.2012, № 405-IVQD)
[43]DİQ, bənd 30.2
[44]DİQ, bənd 35.3
[45]CİM, maddə 84.1; DİQ, bənd 33.1
[46]DİQ, bənd 33.1

*yaşayan şəxslərlə danışması imkanını aradan qaldırır. Hesab olunur ki, göstərilən məhdudiyyətin aradan qaldırılması məqsədəmüvafiqdir.*

Yuxarıda göstərilənlərlə bağlı Müvəkkil tərəfindən ƏN-ə müvafiq müraciət ünvanlanmışdır və hazırda sözü gedən təkliflər öyrənilməkdədir.

2012-ci ildə, həmçinin müxtəlif mənbələrdən Müvəkkilin MPM qismində fəaliyyətinə dair daxil olmuş çoxsaylı sorğuların ətraflı cavablandırılması ilə yanaşı, BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının ikinci dövri məruzəsinin hazırlanması üçün MPM-lə əlaqədar müvafiq arayış hazırlanmış və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilmişdir.

MPM qismində aparılan hüquqi təhlil işinin yekunu işgəncələrin qarşısının alınması sahəsində həyata keçirilmiş fəaliyyətin təşkili vəziyyətinin və təcrübənin təhlilini, fəaliyyət nəticəsində əldə olunmuş nəticələrin ümumiləşdirilməsini, müvafiq statistikanı, təklif və tövsiyələri ehtiva edən hazırkı məruzənin hazırlanması olmuşdur.

# BÖLMƏ 4.

# HÜQUQİ MAARİFLƏNDİRMƏ

Artıq qeyd olunduğu kimi, hüquqi maarifləndirmə işinin təşkili Azərbaycan MPM-nin fəaliyyətinin əsas istiqamətlərindən biridir. Sözü gedən fəaliyyətin daha yüksək səviyyədə və intensiv, digər dövlət qurumlarının da cəlb olunması ilə təşkili Müvəkkilin də təklifləri nəzərə alınmaqla qəbul edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı ilə də şərtləndirilmişdir. Adı çəkilən sənəd Konvensiyanın və FP-nin tələblərinin hüquq-mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işinin təşkil olunmasını, həmçinin FP-yə uyğun olaraq MPM-in funksiyalarının səmərəli yerinə yetirilməsini təmin etmək məqsədi ilə maarifləndirmə və digər zəruri tədbirlərin həyata keçirilməsini, habelə əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsinin və ayrı-seçkiliyin yolverilməzliyinin təbliği məqsədi ilə maarifləndirmə tədbirlərinin keçirilməsini aidiyyəti qurumlar üçün vəzifə kimi müəyyənləşdirmişdir.[47]

Əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə də hüquqi maarifləndirmə fəaliyyəti hədəf auditoriyasına görə aşağıdakı kimi qruplaşdırıla bilər:

- Aparatın əməkdaşları və MPQ üzvləri üçün;
- azadlıqdan məhrumetmə yerlərinin işçiləri, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün; və
- azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslər üçün təşkil olunan tədbirlər.

Göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, Aparatda mütəmadi olaraq insan hüquqlarının müxtəlif aspektlərinə, eləcə də işgəncələrlə mübarizə məsələlərinə həsr olunmuş buklet, liflet, broşur və kitablar, həmçinin plakatlar hazırlanaraq nəşr etdirilir, aidiyyəti qurumların əməkdaşlarına pulsuz paylanılır. Maarifləndirmə məqsədi ilə, FP-ninmətni MPM-in bütün illik hesabatlarına əlavə olunaraq çap edilir.

Ötən dövr ərzində yuxarıda sadalanan auditoriyaların hər birinə istiqamətlənmiş çoxsaylı silsilə maarifləndirmə tədbirləri təşkil olunmuşdur. Tədbirlərdə Azərbaycan Respublikasının Baş Prokurorluğu, DİN, ƏN və MTN əməkdaşları yaxından iştirak etmişlər. Yeri gəlmişkən, Müvəkkil

[47] Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı (Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir), bənd 4.1, 4.2, 4.10

MPM-in daha səmərəli fəaliyyəti üçün müvafiq dövlət qurumları, xüsusilə hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılmasına yönəlmiş tədbirlərin davamlı olaraq inkişaf etdirilməsini daim diqqətdə saxlayır.

Hüquqi maarifləndirmə işlərinin təşkili zamanı dövlət qurumları ilə yanaşı, beynəlxalq təşkilatlar, QHT və KİV-lə əməkdaşlığa da xüsusi önəm verilir və birgə tədbirlər təşkil olunur. Belə tədbirlərdən biri Müvəkkil və ATƏT-in Bakı Ofisi tərəfindən MPM çərçivəsində saxlama yerlərinin monitorinqi və hesabatların hazırlanması bacarıqları üzrə keçirilən metodoloji seminar olmuşdur.

"Azadlıqdan məhrumetmə yerlərinin müşahidəsi" İctimai Birliyinin "Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası" mövzusunda keçirdiyi dəyirmi masada MPM-in təmsilçiləri V.Məhərrəmov və V.Verdiyevanın iştirakı da uğurlu olmuşdur. MPQ-nin rəhbəri V.Məhərrəmov adı çəkilən tədbirdə azadlıqdan məhrum edilmiş şəxslərlə yanaşı, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin hüquqlarının da diqqətdə saxlanıldığını, preventiv başçəkmələr zamanı azad olunacaq şəxslərin dinlənildiyini və mövcud problemlərin həlli istiqamətində müvafiq tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmış, ƏƏSMN yanında yaradılmış sığınacaqların tikintisinin tezləşdirilməsi, məhkumların cəzadan azad olunduqdan sonra onlara birdəfəlik pul müavinətlərinin vaxtında verilməsi, cəzadan azad olunmuş xəstə məhkumların mülki xəstəxanalarda nəzarətə götürülməsi, məhbusların və penitensiar müəssisələrdə cəza çəkməkdən azad olunmuş şəxslərin hüquqları ilə bağlı daha geniş maarifləndirmə tədbirlərinin keçirilməsi zərurəti və s. barədə təkliflər səsləndirmişdir.

MPM-in maarifləndirmə fəaliyyətinin istiqamətlərindən biri olan azadlıqdan məhrumetmə yerlərinin əməkdaşları üçün hüquqi-maarifləndirmə tədbirlərinin təşkili hər il olduğu kimi, 2012-ci ildə də davam etdirilmişdir. Müvəkkilin tapşırığı ilə, MPM-in əməkdaşları müvafiq dövlət qurumları tərəfindən keçirilən maarifləndirmə tədbirlərində, DİN-in Polis Akademiyasının və ƏN-in Ədliyyə Akademiyasının müdavimləri, ixtisasartırma kurslarına cəlb edilmiş zabitlər, eləcə də yeni zabitlər üçün təşkil olunan kurslarda ayrı-ayrı vaxtlarda mühazirələr oxumuş, aidiyyəti beynəlxalq və milli standartların tələbləri barədə məlumat vermişlər.

Müvəkkilin təşəbbüsü ilə həmçinin 21 sentyabr – Beynəlxalq Sülh günü münasibətilə ölkədə keçirilən Sülh aylığı çərçivəsində Milli Preventiv Qrupun rəhbəri V.Məhərrəmov DİN-in Baş Mühafizə İdarəsinin zabit, sıravi və mülki işçiləri üçün insan hüquqlarına dair mühazirə oxumuşdur.

Aparılan maarifləndirmə işləri çərçivəsində, həmçinin psixiatriya xəstəxanalarında müalicə olunan şəxslərin hüquqlarının təşviqi də xüsusi diqqətdə saxlanılmışdır. 2012-ci il ərzində Müvəkkilin təşəbbüsü və Respublikanın baş psixiatrının iştirakı ilə ölkənin müxtəlif regionlarında psixiatriya sahəsindəki problemlərə həsr edilmiş silsilə regional müşavirələr, həmçinin bu sahədə çalışan həkimlər üçün ruhi xəstələrə beynəlxalq və Avropa standartlarına uyğun tibbi xidmət göstərilməsi və rəftarla bağlı təlimlər təşkil edilmişdir. Bu qəbildən olan tədbirlərdə psixiatr həkimlərə və digər tibb işçilərinə psixonevroloji xəstələrlə humanist, etik davranış normalarına uyğun rəftar, nəzakətli davranış, xəstələrin saxlanılması, həmçinin hüquqlarının təmin olunması üzrə mövcud standartların, müvafiq normativ-hüquqi aktlarının öyrənilməsi və tətbiqi, sanitariya normalarına ciddi riayət olunması xüsusilə tövsiyə edilmişdir. Müvəkkil sözü gedən *standartların Azərbaycan dilinə tərcümə edilməsinin, yerlərdə maarifləndirici seminarların keçirilməsinin, müvafiq konvensiya və qanunların kitabça şəklində çap etdirilməsinin, tibb işçilərinin, həmçinin xəstələrin hüquqlarını əks etdirən hüquqi nəşrlərin hazırlanıb yayılmasının və öyrənilməsinin, həkimlərin peşəkarlığının artırılması üçün treninqlərin təşkilinin zəruriliyini* qeyd etmişdir.

Bu istiqamətdə fəaliyyətin tərkib hissəsi olaraq, Psixi Sağlamlıq Mərkəzində təşkil olunan dəyirmi masada Müvəkkilin nümayəndələri Y.Cəfərova və M.Məmmədov iştirak etmiş, çıxışlar zamanı psixiatriya xəstəxanaları və ruhi-əsəb dispanserlərinin MPM-in diqqət mərkəzində olduğunu, belə tədbirlərin psixi sağlamlıq məsələlərinin geniş ictimaiyyətə çatdırılması üçün imkan yaratdığını vurğulamışlar.

Onu da qeyd etmək lazımdır ki, 2012-ci il ərzində Müvəkkilin regional mərkəzləri tərəfindən də MPM-in fəaliyyəti üzrə mütəmadi maarifləndirmə işi aparılmış, çoxsaylı seminar və görüşlər keçirilmiş, əhali və müvafiq qurumlara FP-nin tələbləri, Azərbaycan MPM-nin fəaliyyəti barədə məlumat verilmiş, habelə müxtəlif regional qəzetlərdə müvafiq məqalələrlə çıxışlar edilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Məlum olduğu kimi, Konstitusiya Qanununa əsasən, Müvəkkil fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir [48] və ictimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq işinin təşkili Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri kimi çıxış edir.

2012-ci ildə də dövlət və yerli özünüidarəetmə orqanları, yerli vətəndaş cəmiyyəti qurumları, KİV, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili uğurla davam etdirilmişdir.

Ötən dövr ərzində Azərbaycan MPM-nin fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır. 2012-ci ildə bu və ya digər tədbirdə edilən məruzələrlə yanaşı, KİV-də başçəkmələrlə əlaqədar 54, maarifləndirmə xarakterli və digər tədbirlərlə əlaqədar 29 olmaqla, cəmi 83 mətbuat açıqlaması yayımlanmışdır. Ümumilikdə 2009-2012-ci illər ərzində yayımlanmış 421 mətbuat açıqlamasından 256-sı başçəkmə, 165-i isə maarifləndirmə xarakterli və digər tədbirlərlə əlaqədar olmuşdur. Mətbuat açıqlamaları, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ aktlar Müvəkkilin rəsmi internet səhifəsində yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Yeri gəlmişkən qeyd olunmalıdır ki, MPM-in 2009-2010, eləcə də 2011-ci il üzrə hesabatlarının tərcümə olunaraq ikidildə nəşr etdirilməsi ATƏT-in Bakı Ofisi tərəfindən təmin edilmişdir. MPM-in fəaliyyətinə dair hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, həmçinin aidiyyəti dövlət qurumlarına, BMT-nin İşgəncələr Əleyhinə Komitəsinə, Altkomitəyə, Avropa Komitəsinə, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiyaya, bu sahədə çalışan beynəlxalq ekspertlərə və Avropa MPM-lər Şəbəkəsinə üzv dövlətlərin əlaqələndirici şəxslərinə göndərilmişdir.

Qeyd etmək lazımdır ki, Müvəkkil MPM qismində müəyyən olunduqdan sonra, digər təşkilatlarla yanaşı, yuxarıda göstərilən qurumlarla daha sıx əməkdaşlıq qurmuş, həmçinin Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər Baş Direktorluğu və İşgəncələrin Qarşısının Alınması üzrə

[48] Konstitusiya Qanunu, maddə 1.4

Assosiasiya tərəfindən təşkil olunan Avropa MPM-lər Şəbəkəsinə üzv olmuşdur. Şəbəkə üzv ölkələrin MPM-lərini, işin daha da təkmilləşdirilməsi məqsədi ilə, Avropanın nüfuzlu ekspertlərinin iştirak etdiyi müvafiq treninq və seminarlara cəlb edir, bilik və bacarıqların artırılmasına şərait yaradır.

Əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə də beynəlxalq əməkdaşlıq çərçivəsində ölkədə bir neçə birgə tədbir keçirilmiş, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri və müxtəlif xarici ekspertlər Aparatda qəbul edilmiş, MPQ-nin əməkdaşları təcrübə mübadiləsi və nəzəri biliklərin artırılması üçün beynəlxalq tədbirlərdə iştirak etmişlər.

Yeri gəlmişkən, Avropa Komitəsinin ölkədə səfərdə olan üzvü Jan-Pyer Rastellini, həmin Komitənin katibliyinin əməkdaşları Trevor Stevens və İzabel Servoz-QalluçiAparatın rəhbəri A.Səfixanlı, MPQ-nin rəhbəri V.Məhərrəmov və MPQ üzvləri tərəfindən qəbul olunarkən, onlara MPM-in fəaliyyəti, qanunvericilikdə edilmiş dəyişikliklər və görülmüş işlər haqqında ətraflı məlumat verilmiş, həyata keçirilən başçəkmələrin milli qanunvericiliklə yanaşı, həmçinin beynəlxalq sənədlərin tələblərinə uyğun aparıldığı, eləcə də Avropa Komitəsinin standartlarının nəzərə alındığı bildirilmiş, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. Avropa Komitəsinin nümayəndələri Azərbaycan MPM-nin fəaliyyətini yüksək dəyərləndirmiş, qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirmişlər.

Qeyd olunduğu kimi, beynəlxalq əməkdaşlıq çərçivəsində təşkil olunan birgə tədbirlər MPM-in fəaliyyətində xüsusi önəm kəsb edir. Belə tədbirlərdən biri 26-27 aprel 2012-ci il tarixdə ATƏT-in Bakı Ofisi ilə birlikdə keçirilən MPM çərçivəsində saxlama yerlərinin monitorinqi və hesabatların hazırlanması bacarıqları üzrə metodoloji seminar olmuşdur. Seminarın açılışında ATƏT-in Bakı Ofisinin rəhbəri K.Tarqay böyük təcrübəyə malik olan Müvəkkillə əməkdaşlığın ATƏT-in Bakı Ofisinin fəaliyyətində də əsas yerlərdən birini tutduğunu və sözü gedən əlaqələrin insan hüquqları sahəsində mühüm əhəmiyyətə malik olduğunu vurğulamışdır. Tədbirdə milli və beynəlxalq ekspertlərlə yanaşı, MPQ-nin rəhbəri V.Məhərrəmov, həmçinin üzvləri A.Əliyev və F.Həsənov tərəfindən mövzu ilə əlaqədar məruzələr və çıxışlar edilmişdir.

2012-ci ildə ölkədən kənarda keçirilən tədbirlərdə iştirak da kifayət qədər uğurlu hesab oluna bilər. Mart ayında İsveçrənin Cenevrə şəhərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən üzv ölkələrin MPM-ləri üçün “Deportasiya prosesi və preventiv monitorinq” mövzusunda keçirilən beynəlxalq seminara Avropanın 24 ölkəsinin MPM-nin, bu sahə üzrə müvafiq monitorinq qruplarının nümayəndələri, həmçinin insan hüquqları üzrə tanınmış ekspertlərlə yanaşı, Azərbaycan MPM-nin təmsilçiləri də

qatılmışlar. Seminarda əsasən son zamanlar aktual məsələ kimi qabardılan pis rəftar hallarının qarşısını almaq məqsədi ilə üçüncü ölkə vətəndaşlarının deportasiyası prosesi, deportasiya edilmə şəraiti və rəftarın beynəlxalq hüquq normaları və miqrasiya hüququ prizmasından MPM-lər tərəfindən monitorinqi məsələsi müzakirə edilmişdir. Tədbirdə MPQ-nin rəhbərinin Azərbaycan MPM-nin müvafiq fəaliyyəti, əldə olunmuş təcrübə, görülmüş işlər barədə çıxışı maraqla qarşılanmışdır.

2012-ci ilin mart ayında Gürcüstanın paytaxtı Tbilisi şəhərində Beynəlxalq Həbsxana İslahatı təşkilatının Cənubi Qafqaz regionu üzrə ofisi tərəfindən keçirilən "Cənubi Qafqazda işgəncələrə və qəddar rəftara qarşı mübarizə və onların qarşısının alınması" mövzusunda forumda, eləcə də sözü gedən təşkilatın həmin şəhərdə iyun ayında təşkil etdiyi "İşgəncələrin qarşısının alınması üzrə mexanizmlərin inkişafı" mövzusunda regionlararası konfransda dövlət orqanları və qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin, müxtəlif monitorinq qurumlarının nümayəndələri, habelə insan hüquqları sahəsində tanınmış ekspertlərlə yanaşı, Azərbaycan MPM-nin də V.Məhərrəmov, A.Hacıyev və F.Həsənov tərəfindən təmsil olunması faydalı olmuşdur. İştirakçılara Azərbaycan Respublikasında işgəncələrin qarşısının alınması üzrə tədbirlər və MPM-in fəaliyyətinin əsas istiqamətlərinə dair məlumat verilmiş, müsbət təcrübə, qazanılmış uğurlar diqqətə çatdırılmış, başçəkmələrin aparılması qaydaları, tövsiyələrin və hesabatların hazırlanması barədə çıxışlar edilmiş, müvafiq suallar cavablandırılmışdır.

Beynəlxalq əməkdaşlıq sahəsində göstərilənlərlə yanaşı, təkmilləşdirilməsi zəruri hesab olunan bir sıra məsələlər də qeydə alınmışdır. Belə ki, MPM-in müvafiq beynəlxalq qurumlarla, xüsusilə Altkomitə ilə əməkdaşlığının daha yaxından qurulması arzuolunandır. Odur ki, *Altkomitənin MPM-lərin işinin daha yüksək səviyyədə qurulması məqsədi ilə həm nəzəri, həm də təcrübi əsaslarla təlim-seminarlar keçirməsi, eləcə də MPM-lər tərəfindən həm üzvləri, həm azadlıqdan məhrumetmə yerlərinin əməkdaşları, həm də belə yerlərdə saxlanılan şəxslər üçün təşkil olunan hüquqi maarifləndirmə tədbirlərinə metodik dəstək verməsi, habelə təcrübə mübadiləlәritəşkil etməsi məqsədəmüvafiqdir.* Qeyd olunanlarla əlaqədar Müvəkkilin təklifləri aidiyyəti üzrə göndərilmişdir.

# BÖLMƏ 6.

# TƏKLİF VƏ TÖVSİYƏLƏR

Həyata keçirilən fəaliyyətin ümumi təhlili MPM-in yaradılması ilə ölkədə işgəncələrin qarşısının alınması işində əsaslı irəliləyişəldə olunduğunu deməyə əsas verir.

Aşağıdakı istiqamətlər üzrə qeydə alınmış müsbət dəyişikliklər xüsusilə vurğulanmalıdır:

- qanunvericiliyin liberallaşdırılması – daha da humanistləşdirilməsi;
- saxlanılan şəxslərlə rəftar səviyyəsinin yüksəldilməsi;
- saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə şəraitin təkmilləşdirilməsi.

2012-ci il ərzində həyata keçirilmiş fəaliyyət, eləcə də əldə olunmuş uğurlar hazırkı hesabatın müvafiq hissələrində ətraflı əks etdirilmişdir.

Göstərilənlərlə yanaşı, aparılan təhlillər aşağıdakı təklif və tövsiyələrin irəli sürülməsini şərtləndirmişdir.

***Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində***

1) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində Müvəkkilin qanuni fəaliyyətinə mane olmağa görə nəzərdə tutulmuş sanksiyanın sərtləşdirilməsi;
2) Azərbaycan Respublikasının İnzibati Xətalar MəcəlləsindəMPQ-nin qanuni fəaliyyətinə mane olmağa görə məsuliyyətin təsbit olunması;
3) “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 22 may 2012-ci il tarixli Qanununda MPQ ilə yazışmaların senzuraya məruz qalmasının yolverilməzliyi barədə müddəanın təsbit olunması;
4) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”də MPQ ilə yazışmaların senzuraya məruz qalmasının yolverilməzliyi barədə müddəanın təsbit olunması;
5) ƏN-in hazırladığı “Həbs yerlərində Daxili intizam qaydaları”nın Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmasının tezləşdirilməsi;
6) DİQ-in 30.2-ci bəndinin müxtəlif cəzaçəkmə müəssisələrində cəza çəkən yaxın qohumların görüşməsinə şərait yaradılması məqsədi ilə redaktə edilməsi;

7) DİQ-in görüşlərin təqdim edilmə vaxtının məhkuma il ərzində verilən eyni növlü görüşlərin sayının on iki aya bölünməklə müəyyən edilməsi qaydasını şərtləndirən 35.3-cü bəndinin ləğv edilməsi;
8) DİQ-in 33.1-ci bəndinin hər məhkumun qanunvericiliklə müəyyən olunmuş müddətdə yalnız bir abonentlə danışmasını şərtləndirən müddəasının çıxarılması;

***Təşkilati məsələlərin həlli istiqamətində***

9) Azərbaycan Respublikasının Baş Prokurorluğu, həmçinin HP tərəfindən azadlıqdan məhrumetmə yerlərinə müntəzəm nəzarət, işgəncələrlə mübarizə, eləcə də maarifləndirmə işlərinin davam etdirilməsi;
10) DİN tərəfindən polis orqanlarına gətirilmiş şəxslər barədə müvafiq məlumatların qeydiyyatının aparılması işlərinə, saxlama həddinin aşılmamasına nəzarət və tələbkarlığın artırılması;
11) DİN tərəfindən müvafiq müəssisələrdə istifadə müddəti ötmüş dərman preparatlarının müntəzəm olaraq yenisi ilə əvəz olunmasına nəzarətin artırılması;
12) DİN tərəfindən MSY-lərdə intihar, özünə xəsarət və digər neqativ halların qarşısının alınması üçün müasir tipli nəzarət avadanlıqlarının quraşdırılması işinin davam etdirilməsi;
13) DİN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi, habelə ehtiyac olan yerlərdə yeni binaların inşası işinin davam etdirilməsi;
14) DİN tərəfindən müvafiq istiqamətlər üzrə aparılan maarifləndirmə işlərinin davam etdirilməsi, MPM-in bu işlərdə yaxından iştirakının təmin edilməsi;
15) ƏN tərəfindən müvafiq müəssisələrdə məhkumların intizam vəziyyətinin, tətbiq olunan tənbeh tədbirlərinin növlərinin, habelə adekvatlığının, eləcə də tətbiq edilən fiziki qüvvə və xüsusi vasitələrin adekvatlığının müntəzəm olaraq təhlil edilməsi, fərdi-tərbiyəvi və profilaktik xarakterli tədbirlərin həyata keçirilməsinin nəzarətdə saxlanılması;
16) ƏN tərəfindən bu və ya digər müəssisədə aşkar olunmuş qanun pozuntuları üzrə, bu cür neqativ halların təkrarlanmasının qarşısının alınması üçün, daha qətiyyətli məsuliyyət tədbirlərinin tətbiq edilməsi;
17) ƏN tərəfindən müvafiq müəssisələrdə məhkumların müayinə və müalicə işinin qurulmasına, əlilliyin müəyyən olunması ilə əlaqədar

ƏƏSMN ilə qarşılıqlı əməkdaşlıqda zəruri tədbirlərin görülməsi işinə nəzarətin artırılması;

18) ƏN tərəfindən əlilliyi olan, habelə İİV/QİÇS, hepatit, narkomaniya, vərəm, şəkərli diabet və başqa ağır xəstəliklərdən əziyyət çəkən şəxslərin saxlanma şəraiti, müayinə və müalicəsi ilə, eləcə də bu qəbildən olan insanlarla bağlı həyata keçirilən digər tədbirlərin diqqətdə saxlanılmasının davam etdirilməsi;
19) ƏN tərəfindən intihara və özünə xəsarət yetirməyə meylli məhkumlar üzərində nəzarət, profilaktik və psixoloji təsir tədbirlərinin gücləndirilməsi;
20) ƏN tərəfindən məhkumların qanunvericiliklə nəzərdə tutulmuş qaydada yazışmalarının aparılmasının təmin olunması işinə nəzarətin gücləndirilməsi;
21) ƏN tərəfindən TSH-lərin keyfiyyətli dərman preparatları ilə vaxtında təmin edilməsinə nəzarətin artırılması;
22) ƏN tərəfindən müvafiq TSH-lərdə mövcud vakant yerlərə əməkdaşların qəbul edilməsi işinin təmin edilməsi;
23) ƏN tərəfindən 5 saylı CÇM-də TSH-nin istifadəyə yararlı bina ilə təmin olunması;
24) ƏN tərəfindən müvafiq müəssisələrdə sıxlıq hallarının aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi;
25) ƏN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi, məhkumların istifadəsində olan telefon xətlərinin, eləcə də sanitar qovşaqların sayının məhkumların sayına uyğunlaşdırılması, döşəmələrin taxta ilə üzlənməsi işlərinin davam etdirilməsi;
26) ƏN tərəfindən yaxınlığında daş karxanası yerləşən 14 saylı CÇM-də müəssisə əməkdaşları və məhkumların sağlamlığının diqqətdə saxlanılması, qeydə alınan ekoloji pozuntularla bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırılması;
27) ƏN tərəfindən yeni müəssisələrin inşası işinin sürətləndirilməsi;
28) ƏN tərəfindən MTCM-lərə nəzarətin artırılması, bu müəssisələrdə məhkumlarla davranış, qeydiyyat və cəzaların icrası ilə bağlı digər işlərin vəziyyətinin təkmilləşdirilməsi;
29) ƏN tərəfindən məhkumlar üçün daimi iş yerlərinin yaradılması, fərdi əmək fəaliyyəti ilə məşğul olmanın stimullaşdırılması, asudə vaxtın səmərəli təşkili üzrə həyata keçirilən tədbirlərin davam etdirilməsi;

30) ƏN tərəfindən müvafiq istiqamətlər üzrə aparılan maarifləndirmə işlərinin davam etdirilməsi, MPM-in bu işlərdə yaxından iştirakının təmin edilməsi;
31) Bakı Ağır Cinayətlər Məhkəməsinin həbs edilmiş şəxslər üçün nəzərdə tutulan gözləmə otaqlarının vəziyyətinin mövcud standartların tələblərinə uyğunlaşdırılması;
32) MTN tərəfindən müvafiq istiqamətlər üzrə aparılan maarifləndirmə işlərinin davam etdirilməsi, MPM-in bu işlərdə yaxından iştirakının təmin edilməsi;
33) MN tərəfindən MPM-lə daha konstruktiv əməkdaşlığın qurulması istiqamətində səylərin göstərilməsi;
34) MN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi, mövcud standartlara cavab verməyən müəssisələrdə əsaslı təmir işlərinin aparılması, habelə ehtiyac olan yerlərdə yeni binaların inşası işinin təmin edilməsi;
35) MN tərəfindən müvafiq müəssisələrdə işin qanunvericiliyin tələblərinə uyğun qurulması vəziyyətinə tələbkarlığın artırılması;
36) SN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi, mövcud standartlara cavab verməyən müəssisələrdə əsaslı təmir işlərinin aparılmasının davam etdirilməsi;
37) SN tərəfindən xəstələrin müəssisələrdə gün ərzində qidalanması və müalicəsi üçün nəzərdə tutulan vəsaitin artırılması üçün tədbirlər görülməsi;
38) SN tərəfindən müvafiq müəssisələrdə asudə vaxtın daha səmərəli təşkili üçün tədbirlər görülməsi;
39) SN tərəfindən müvafiq istiqamətlərdə konvensiya və qanunların kitabça şəklində çap etdirilməsi, tibb işçilərinin, həmçinin xəstələrin hüquqlarını əks etdirən hüquqi nəşrlərin hazırlanıb yayılmasıvə öyrənilməsi, həkimlərin peşəkarlığının artırılması üçün treninqlərin təşkil olunması, digər maarifləndirmə işlərinin davam etdirilməsi, MPM-in bu işlərdə yaxından iştirakının təmin edilməsi;
40) TN tərəfindən MPM-lə daha konstruktiv əməkdaşlığın qurulması istiqamətində səylərin göstərilməsi;
41) TN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi;
42) TN tərəfindən müvafiq müəssisələrin vakant psixoloq ştatlarının müvafiq kadrlarla təmin olunması üçün tədbirlər görülməsi;
43) TN tərəfindən müvafiq müəssisələrin əməkdaşlarının əmək haqlarının artırılması istiqamətində tədbirlər görülməsi;

44) TN tərəfindən müvafiq müəssisələrdə saxlanılan şəxslərin şəxsiyyət vəsiqəsi ilə vaxtında təmin edilmələri üçün tədbirlər görülməsi;
45) ƏƏSMN tərəfindən MPM-lə daha konstruktiv əməkdaşlığın qurulması istiqamətində səylərin göstərilməsi;
46) ƏƏSMN tərəfindən müvafiq müəssisələrdə maddi şəraitin təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi;
47) ƏƏSMN tərəfindən müvafiq istiqamətlər üzrə maarifləndirmə tədbirlərinin təşkilinin davam etdirilməsi, işçi heyətin özünə xəsarət yetirməyə meylli uşaqlarla profilaktik işin aparılmasına dair mütəmadi məlumatlandırılmalarının, müsbət beynəlxalq təcrübəni öyrənmələrinin təşkil olunması;
48) ƏƏSMN tərəfindən məhkumlara əlilliyin təyin olunması ilə əlaqədar daxil olmuş müraciətlərə baxılması işinin təkmilləşdirilməsi;
49) ƏƏSMN tərəfindən penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün yaradılan sığınacaqların inşası işinin tezləşdirilməsi;
50) Müvəkkil tərəfindən təşkil olunan müxtəlif səpgili maarifləndirmə tədbirlərində tabeliklərində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlər olan qurumların nümayəndələrinin iştirakının təmin edilməsi, müvafiq əməkdaşlığın davam etdirilməsi;
51) Öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanılan şəxslərin hüquq və azadlıqlarına dair maarifləndirmə vəsaitlərinin hazırlanaraq həmin şəxslər, eləcə də ailə üzvləri arasında paylanılması;
52) Tabeliklərində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlər olan qurumlar tərəfindən müvafiq müəssisələrdə çalışan əməkdaşları üçün qabaqcıl təcrübəni öyrənmələri və əməli fəaliyyətdə tətbiq etmələri məqsədi ilə təcrübə mübadilələrinin təşkili;
53) Altkomitə tərəfindən MPM-lərin işinin daha yüksək səviyyədə qurulması məqsədi ilə həm nəzəri, həm də təcrübi əsaslarla təlim-seminarlar keçirilməsi;
54) Altkomitə tərəfindən MPM-lərin üzvləri, azadlıqdan məhrumetmə yerlərinin əməkdaşları, eləcə də belə yerlərdə saxlanılan şəxslər üçün hüquqi maarifləndirmə tədbirlərinə metodik dəstək verilməsi, habelə təcrübə mübadilələrinin təşkil edilməsi.

*Əlavə 1*

**MPM rəqəmlərdə**

***Diaqram 1. MPM-in başçəkmələr həyata keçirdiyi müəssisələr***




***Diaqram 2. MPM-in 2012-ci ildə həyata keçirdiyi başçəkmələr***



***Diaqram 3. MPM-in 2012-ci ildə həyata keçirdiyi başçəkmələr (müəssisələr üzrə)***




***Diaqram 4. MPM-in başçəkmələri (illər üzrə)***



***Diaqram 5. MPM-in mətbuat açıqlamaları (illər üzrə)***



*Əlavə 2*

**FOTOŞƏKİLLƏR**



***Şəkil 1. Ombudsman MPQ üzvləri ilə***



***Şəkil 2. Ombudsman Qusar RPŞ MSY-də***




***Şəkil 3. PX 14 saylı CÇM-də maarifləndirmə tədbirində***



***Şəkil 4. Ombudsman Baş psixiatr ilə SN-in Şorsulu Rayonlararası Psixiatriya Xəstəxanasında***



*Şəkil 5. Xəzər RPŞ MSY, kamera*



*Şəkil 6. PX-nin Bakı istintaq təcridxanası, TSH, palata*



***Şəkil 7. PX-nin Bakı istintaq təcridxanası, kamera***



***Şəkil 8. PX-nin Bakı istintaq təcridxanası, TSH, stomatoloq otağı***



***Şəkil 9. PX-nin İxtisaslaşdırılmış müalicə müəssisəsində***



***Şəkil 10. PX 4 saylı CÇM, xalçaçılıq sexi***



***Şəkil 11. Ombudsman ƏƏSMN-nin Şağan 3 saylı Əqli geriliyi olan uşaqlar üçün internat evində***



***Şəkil 12. Ombudsman ƏƏSMN-nin Ahıllar evində***



*Şəkil 13. SN-in 1 saylı Respublika Psixiatriya Xəstəxanasında*



*Şəkil 14. Qanunsuz miqrantların saxlanılması mərkəzində*

*Əlavə 3*

**“İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın**
**FAKÜLTATİV PROTOKOLU[49]**

## Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

---

[49] Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli, 724-IIIQ nömrəli qanunla ratifikasiya edilmişdir. Həmin qanunun dərcindən – 15 yanvar 2009-cu il tarixdən Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir.

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I hissə
## ÜMUMİ PRİNSİPLƏR

**Maddə 1**

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

**Maddə 2**

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

**Maddə 3**

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

**Maddə 4**

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında

olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II hissə

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

**Maddə 5**

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

**Maddə 6**

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

**Maddə 7**

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

**Maddə 8**

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

**Maddə 9**

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

**Maddə 10**

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

III hissə

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMITƏNİN MANDATI

**Maddə 11**

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, belə mexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının
aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

**Maddə 12**

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

**Maddə 13**

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

**Maddə 14**

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

**Maddə 15**

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

**Maddə 16**

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı

şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV hissə

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

**Maddə 17**

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

**Maddə 18**

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

**Maddə 19**

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

**Maddə 20**

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

**Maddə 21**

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə,

icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

**Maddə 22**

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün tədbirlərlə bağlı dialoq aparır.

**Maddə 23**

Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V hissə

## BƏYANAT

**Maddə 24**

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI hissə

## MALİYYƏ MÜDDƏALARI

**Maddə 25**

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

**Maddə 26**

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII hissə

## YEKUN MÜDDƏALAR

**Maddə 27**

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

**Maddə 28**

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

**Maddə 29**

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

**Maddə 30**

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

**Maddə 31**

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

**Maddə 32**

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

**Maddə 33**

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

**Maddə 34**

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

**Maddə 35**

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

**Maddə 36**

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

**Maddə 37**

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.

## "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokoluna dair Azərbaycan Respublikasının

## BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).

*Əlavə 4*

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi haqqında**

**Ə S A S N A M Ə**[50]

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi (bundan sonra – Şöbə) Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) (bundan sonra – Müvəkkil) "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm qismində fəaliyyətini təşkil edən struktur vahididir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunvericilik aktlarını, eyni zamanda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı və regional mərkəzləri haqqında Əsasnaməni, Müvəkkilin əmr, sərəncam və göstərişlərini, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz fəaliyyətini insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, aşkarlıq, şəffaflıq, qanunun aliliyi, ədalət, qərəzsizlik, humanistlik və konfidensiallıq prinsipləri əsasında qurur.

1.4. Şöbə ona həvalə edilmiş vəzifələri bilavasitə və ya Müvəkkilin Aparatının digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə həyata keçirir. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları, yerli özünüidarəetmə orqanları, eləcə də yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

1.5. Şöbənin strukturuna Başçəkmələr sektoru və Hüquqi təhlil və hesabatlar sektoru daxildir.

1.6. Başçəkmələr sektoru bu Əsasnamənin 3.1.1, 3.1.2, 3.1.6, 3.1.8, 3.1.9-cu bəndlərində göstərilən vəzifələri yerinə yetirir və bu Əsasnamənin 4-cü bəndində nəzərdə tutulmuş hüquqlardan istifadə edir.

---

[50] Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 14 sentyabr 2012-ci il tarixli 247 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

1.7. Hüquqi təhlil və hesabatlar sektoru bu Əsasnamənin 3.1.3-3.1.9-cu bəndlərində göstərilən vəzifələri yerinə yetirir və bu Əsasnamənin 4-cü bəndində nəzərdə tutulmuş hüquqlardan istifadə edir.

1.8. Şöbənin fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təchizatı Müvəkkil və onun aparatının, regional mərkəzlərinin fəaliyyəti üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş vəsait və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına həyata keçirilir.

1.9. Şöbənin əməkdaşları Müvəkkilin Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrupun üzvüdürlər.

**2. Şöbənin fəaliyyət istiqamətləri**

2.1. Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Müvəkkilin işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaların (bundan sonra – işgəncə) qarşısının alınması üzrə milli preventiv mexanizm qismində fəaliyyətini təşkil etmək;

2.1.2. İşgəncələrin qarşısının alınması işinin inkişafını təmin etmək;

2.1.3. İşgəncələrin qarşısının alınması işini təşviq etmək.

**3. Şöbənin vəzifələri**

3.1. Şöbə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. İşgəncələrin qarşısının alınması üzrə tədbirləri həyata keçirmək, Müvəkkilin saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri hesab olunan hallarda başçəkmələr həyata keçirməsini, saxlanılmış şəxslərlə söhbətlər aparmasını təşkil etmək;

3.1.2. Müvəkkilin Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrupun işini təşkil etmək, üzvlərinin fəaliyyətini əlaqələndirmək, müvafiq iclaslarının protokolunu aparmaq;

3.1.3. İşgəncələrin, həmçinin digər qanun pozuntularının qarşısının alınması, onları doğuran səbəb və şəraitin aradan qaldırılması barədə müvafiq qurumlara, yaxud vəzifəli şəxslərə ünvanlanması üçün təklif və tövsiyələr hazırlamaq;

3.1.4. İşgəncələrin qarşısının alınması vəziyyətini təhlil etmək – bu sahədə həyata keçirilmiş fəaliyyətin təşkili vəziyyətini və təcrübəni öyrənmək, fəaliyyət nəticəsində əldə olunmuş nəticələri ümumiləşdirmək, statistikasını təhlil etmək və müvafiq təklifləri ehtiva edən illik hesabat hazırlamaq;

3.1.5. İşgəncələrin qarşısının alınması sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə əlaqədar daxil olmuş təklifləri öyrənmək, ümumiləşdirmək və tətbiqini təşkil etmək;

3.1.6. İşgəncələrin qarşısının alınmasının təşviq olunması üzrə tədbirlər həyata keçirmək;

3.1.7. İşgəncələrin qarşısının alınması ilə əlaqədar Müvəkkilin digər dövlət və yerli özünüidarəetmə orqanları, eləcə də yerli, regional və beynəlxalq təşkilatlarla, habelə ictimaiyyətlə əlaqələrinin yaradılmasını təmin etmək;

3.1.8. Həyata keçirilən fəaliyyət zamanı toplanmış konfidensial məlumatın açıqlanmamasını, şəxsi xarakter daşıyan məlumatların, müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadıqda dərc etdirilməməsini təmin etmək;

3.1.9. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**4. Şöbənin hüquqları**

4.1. Şöbə vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Baş çəkilməsi və söhbət aparılması nəzərdə tutulan müəssisələri və şəxsləri sərbəst seçmək;

4.1.2. Tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərin sayı, həmçinin şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

4.1.3. Tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslər arasında sorğular keçirmək;

4.1.4. Aşkar olunmuş işgəncələrin dərhal dayandırılması və qarşısının alınması, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün müvafiq qurumlara, yaxud vəzifəli şəxslərə tövsiyələr verilməsi barədə Müvəkkilə təkliflər vermək;

4.1.5. İşgəncələrin qarşısının alınmasının daha etibarlı təmin edilməsi məqsədi ilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına, o cümlədən Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə çıxarılmış müvafiq qanun layihələrinə dair təklif və qeydlər hazırlamaq;

4.1.6. İşgəncələrin qarşısının alınmasının daha etibarlı təmin edilməsi məqsədi ilə mövcud normativ-hüquqi aktları Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr kontekstində təhlil etmək;

4.1.7. Zəruri hallarda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilməsi üçün sorğular hazırlamaq;

4.1.8. Avropa İnsan Hüquqları Məhkəməsinin işgəncələrə dair məhkəmə təcrübəsini öyrənmək, təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

4.1.9. Azərbaycan Respublikası məhkəmələrinin işgəncələrə dair məhkəmə təcrübəsini öyrənmək, təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

4.1.10. İşgəncələrin qarşısının alınması sahəsində xarici ölkələrin təcrübəsini öyrənmək və müvafiq təkliflər hazırlamaq;

4.1.11. İşgəncələrin qarşısının alınmasının təşviq olunması üzrə konfranslar, seminarlar, dəyirmi masalar, ictimai müzakirələr və digər tədbirlər həyata keçirmək;

4.1.12. İşgəncələrin qarşısının alınması sahəsində hüquqi-maarifləndirmə məqsədi ilə kitab, broşur, buklet, liflet və digər maarifləndirici vəsaitlər nəşr etdirmək və yaymaq;

4.1.13. Müvəkkillə razılaşdırılmış qaydada kütləvi informasiya vasitələrində, ictimai müzakirələrdə və ya digər tədbirlərdə işgəncələrin qarşısının alınmasına dair çıxış etmək;

4.1.14. Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**5. Şöbənin fəaliyyətinin təşkili**

5.1. Şöbənin strukturuna daxil olan sektorlar Şöbənin vahid sistemini təşkil edir. Şöbə öz fəaliyyətini bilavasitə və həmin sektorlar vasitəsilə həyata keçirir.

5.2. Şöbənin işçilərinin ümumi say tərkibi Müvəkkil tərəfindən müəyyən edilir.

5.3. Şöbəyə Müvəkkil tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbə müdiri:

5.4.1. Şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. Şöbənin strukturuna daxil olan sektorlar arasında iş bölgüsünün aparılmasını təmin edir;

5.4.3. Qanunvericiliyə uyğun olaraq verilmiş icrası məcburi olan əmr, sərəncam və göstərişlərin Şöbə tərəfindən vaxtında və dürüst icra olunmasını təşkil edir və nəzarəti həyata keçirir;

5.4.4. Müvəkkilə təqdim olunan layihələrə viza verir;

5.4.5. Şöbənin işinin Müvəkkilin Aparatının digər struktur vahidlərinin işi ilə əlaqələndirilməsini təmin edir;

5.4.6. Şöbə işçilərinin icra və əmək intizamına əməl etməsinə nəzarət edir;

5.4.7. Şöbənin işinin təkmilləşdirilməsi, işçilərinin mükafatlandırılması və ya intizam qaydasında cəzalandırılması üzrə təkliflər verir;

5.4.8. Müvəkkilin tapşırıqlarını yerinə yetirir;

5.4.9. Öz səlahiyyətləri çərçivəsində digər funksiyaları həyata keçirir.

5.5. Şöbə müdirinin Müvəkkil tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır.

5.6. Şöbə müdirinin müavini ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdirinin müavini:

5.7.1. Şöbə müdiri tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir;

5.7.2. Şöbə müdiri olmadıqda onu əvəz edir;

5.7.3. Müvəkkilin və Şöbə müdirinin tapşırıqlarını yerinə yetirir;

5.7.4. Öz səlahiyyətləri çərçivəsində digər funksiyaları həyata keçirir.

5.8. Şöbənin strukturuna daxil olan sektorların fəaliyyətinə Müvəkkil tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sektor müdiri rəhbərlik edir. Sektor müdiri sektora həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.9. Sektor müdiri:

5.9.1. Sektorun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.9.2. Sektorun işçiləri arasında iş bölgüsünün aparılmasını təmin edir;

5.9.3. Qanunvericiliyə uyğun olaraq verilmiş icrası məcburi olan əmr, sərəncam və göstərişlərin sektor tərəfindən vaxtında və dürüst icra olunmasını təşkil edir və nəzarəti həyata keçirir;

5.9.4. Şöbə müdirinə təqdim olunacaq layihələrə viza verir;

5.9.5. Sektorun işinin Şöbənin digər sektorlarının işi ilə əlaqələndirilməsini təmin edir;

5.9.6. Sektorun işçilərinin icra və əmək intizamına əməl etməsinə nəzarət edir;

5.9.7. Sektorun işinin təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.9.8. Müvəkkilin, Şöbə müdirinin və Şöbə müdirinin müavininin tapşırıqlarını yerinə yetirir;

5.9.9. Öz səlahiyyətləri çərçivəsində digər funksiyaları həyata keçirir.

5.10. Şöbədə Müvəkkil tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən məsləhətçilər (aparıcı məsləhətçi, böyük məsləhətçi və baş məsləhətçi; bundan sonra – məsləhətçi) işləyirlər.

5.11. Məsləhətçi ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.12. Məsləhətçi:

5.12.1. İşlədiyi sektorun fəaliyyət istiqamətinə uyğun olaraq zəruri tədbirləri yerinə yetirir;

5.12.2. Qanunvericiliyə uyğun olaraq verilmiş icrası məcburi olan əmr, sərəncam və göstərişlərin vaxtında və dürüst icra olunmasını təmin edir;

5.12.3. Müvafiq başçəkmələrdə və nəticələrinin yekunlaşdırılmasında iştirak edir;

5.12.4. Müvafiq layihə və ya hesabatlar hazırlayır və ya belə layihə və ya hesabatların hazırlanmasında iştirak edir;

5.12.5. İşlədiyi sektorun işinin təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.12.6. Müvəkkilin, Şöbə müdirinin, Şöbə müdirinin müavininin və Sektor müdirinin tapşırıqlarını yerinə yetirir;

5.12.7. Öz səlahiyyətləri çərçivəsində digər funksiyaları həyata keçirir.